www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 may 2019-cu il Cümə № 117 (7287) Qiyməti 60 qəpik

Xəbər

**Milli Məclisdə gərgin müzakirələr**

yazısı səh.10-da

Gündəm

## Bakı iki ingilis komandasının savaşından üzüağ çıxdı



Azərbaycan "Çelsi"-"Arsenal" finalına gələn 20 minə yaxın turisti yüksək səviyyədə qarşıladı, nə təxribat, nə insident oldu; **deputatlar Mxitaryan şousunun iflasından danışdılar:** "İlham Əliyevin komandası peşəkarlıq göstərdi..."

yazısı səh.9-da

## AQTA-nın sektor müdiri həbs edilib

yazısı səh.2-də

## Əcnəbilərə 100 min manata ölkədə yaşamaq hüququ verilir-yeni qanun

yazısı səh.5-də

## Meriyanın mitinqlə bağlı 16-cı qərarı nə olacaq?

yazısı səh.7-də

## Deputatların statusuna dair qanuna dəyişiklik edilib

yazısı səh.7-də

## İnformasiya müharibəsinin hədəfindəki Azərbaycan...

yazısı səh.8-də

## Bakı-Vaşinqton münasibətlərində yeni mərhələ

yazısı səh.11-də

## Dünyanın yeni neft-qaz strategiyası Bakıda müzakirə olunur

yazısı səh.4-də

## ABŞ-ın İrana sülh şərtləri müharibəyə aparır

yazısı səh.11-də

**Ramazan ayının 26-cı günü**

İftar 20.20. İmsak 03. 24-dək (QMİ)

26-cı günün duası: "İlahi, bu gün mənim səyimi bəyənilmiş, günahımı bağışlanmış, əməlimi qəbul olunmuş və eybimi örtülmüş qərar ver! Ey eşidənlərin ən gözəl Eşidəni!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

Bu gün 4-cü Qədr gecəsidir.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# PUTİN PAŞİNYANIN "QƏLƏMİ"Nİ QIRIB - İRƏVANIN FİASKOSU, BAKININ QARABAĞ GÖZLƏNTİSİ

Erməni baş nazir Qazaxıstanda pərt edildi - səbəblər; Kremlin Ermənistana əsas sürprizi hələ qabaqdadır...




yazısı səh.4-də

# Anar Məmmədov ölkəyə qayıtdı - "mülk davası yenidən qızışır" iddiası

Vəkili eks nazirin oğlunun Bakıda olduğunu təsdiqlədi; Ziya Məmmədovun övladının məhkəmələrə müraciət edib, əmlaklarını geri istəməsi nə ilə nəticələnə bilər?

yazısı səh.12-də



*Bahar Muradova:*

**"Bu məsələ heç bir dialoq mövzusu və ya "bazarlıq" predmeti ola bilməz"**

yazısı səh.3-də



*Sərdar Cəlaloğlu:*

**"İqtidar seçki keçirmək üçün əlverişli məqam gözləyir"**

yazısı səh.5-də



**Müsavatın qurultay hazırlığı, Hikmət Hacızadənin qayıtmaq şərti**

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019



## Hərbi qulluqçumuz şəhid olub

**Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən ONA-ya verilən məlumata görə, ATƏT-in Minsk Qrupu həmsədrlərinin respublikamızda səfərdə olduğu bir vaxtda, mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən Azərbaycan Ordusunun hərbi qulluqçusu Omarov Aqil Akif oğlu şəhid olub.**

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!



## Həmsədrlər Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşüblər

**Azərbaycanda səfərdə olan ATƏT-in Minsk Qrupu həmsədrləri Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşüblər. ONA-nın məlumatına görə, görüşdə Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İB-in rəhbəri Tural Gəncəliyev və icmanın idarə heyətinin üzvləri iştirak edib.**

Qeyd edək ki, ATƏT-in Minsk Qrupu həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa), Endrü Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik mayın 27-də Ermənistana səfər ediblər.

## Təhsil Nazirliyi: 800 nəfərlik yeni tələbə yataqxanası istismara hazırdır

**Təhsil Nazirliyi tələbə yataqxanalarında görülən işləri açıqlayıb. ONA-nın xəbərinə görə, Təhsil Nazirliyinin Əsaslı tikinti və təchizat idarəsinin şöbə müdirinin müavini Xəlil Qasımov media nümayəndələri üçün keçirilən təlimdə deyib ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 800 nəfərlik tələbə yataqxanası istismara hazırdır. Gəncə Dövlət Universitetinin ümumi tutumu 792 yerlik üç yataqxanasının isə əsaslı təmir-tikinti işlərinə başlanılıb.**

X. Qasımov qeyd edib ki, sentyabrda Lənkəran Dövlət Universitetinin 156 yerlik yataqxanası istifadəyə veriləcək: "Bundan başqa, Sumqayıt Dövlət Universitetinin 264 yerlik yataqxanasının əsaslı təmiri ilə bağlı layihə-smeta sənədləri hazırlanır".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# AQTA-nın sektor müdiri həbs edilib

Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Baş Prokurorluğun mətbuat xidmətlərindən ONA-ya daxil olan birgə məlumatda qeyd olunur ki, qida təhlükəsizliyi sahəsində şəffaflığın, dürüstlüyün təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması məqsədilə strateji dövlət idarəetməsinin prinsiplərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkar edilmiş korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Qida Təhlükəsizliyi Agentliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.

Belə ki, bəzi əməkdaşların ictimai iaşə xidmətləri göstərən ayrı-ayrı fiziki şəxslərə qarşı qanunsuz hərəkətlərə yol verdiyinə dair Qida Təhlükəsizliyi Agentliyinə daxil olmuş məlumatlar əsasında toplanmış materiallar həmin şəxslərin əməllərinə hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış araşdırmalarla Agentliyin Bakı regional bölməsinin heyvan sağlamlığı və baytarlıq nəzarəti bölməsinin sektor müdiri Elvin Nağıyevin həmin sektorun məsləhətçisi Araz Qazıyevlə cinayət əlaqəsinə girərək paytaxtın Binəqədi rayonu ərazisində qanunsuz heyvan kəsimi ilə məşğul olan Röyal Əliyevin istifadəsində olan ət mağazasının fəaliyyətinin məhdudlaşdırılmasından ötrü 150 manat və eyni məqsədlə Sabunçu rayonu ərazisində yerləşən Zeytun emalı zavodunun ərazisində antisanitar şəraitdə quş kəsimi ilə məşğul olan Taleh Bəbirovdan 300 manat məbləğində rüşvət almalarına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

Həmin vəzifəli şəxslərə Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddələri ilə ittiham elan olunmaqla E.Nağıyev barəsində məhkəmənin qərarı ilə həbs, A.Qazıyev barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılaraq təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Məhkəmələrin səlahiyyət dairəsi genişləndirilir

**Rayon (şəhər) məhkəmələrinin səlahiyyət dairəsi genişləndirilir.**

ONA-nın məlumatına görə, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, rayon (şəhər) məhkəmələrinin baxdığı işlərin dairəsinə 393-1.2-ci maddə də əlavə edilir.

İnzibati Xətalar Məcəlləsinin 393-1.2-ci maddəsinə uyğun olaraq çoxmənzilli binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada tədbirlərin görülməməsinə görə vəzifəli şəxslər 300 manatdan 500 manatadək məbləğdə cərimə edilir. Təklif edilən dəyişiklik isə bu maddədə müvafiq bələdiyyələrin həmin tədbirlərin görülməməsinə görə inzibati məsuliyyətinin müəyyən edilməsini rayon (şəhər) məhkəmələrinin səlahiyyətinə aid edilməsini nəzərdə tutur.

Qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılıb və qəbul edilib.




## "ÜTT ilə danışıqlar iyun ayında davam edə bilər"-nazir müavini

**Azərbaycanla Ümumdünya Ticarət Təşkilatı (ÜTT) arasındakı danışıqlar çərçivəsində yeni görüş iyun ayında keçirilə bilər. Bu barədə "Report"a xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev deyib.**

"Müəyyən irəliləyiş var, amma mənim fikrimcə, bunlar çox da ciddi deyil. Ola bilsin, iyun ayının axırında görüş keçirilər", - nazir müavini qeyd edib.

Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzv ölkələri ilə danışıqlara 2004-cü ildən başlayıb. Hazırda danışıqlar 13 ölkə ilə aparılır. Bu günədək Türkiyə, Gürcüstan, Oman Sultanlığı, Birləşmiş Ərəb Əmirlikləri, Qırğız Respublikası ilə danışıqlar yekunlaşdırılaraq müvafiq protokollar imzalandığı halda, Çin və Moldova ilə protokol imzalanması ilə bağlı işlər görülür.

Son vaxtlar Azərbaycanda iqtisadiyyatın inkişafına dair 12 strateji yol xəritəsi qəbul olunub, ticarətin tənzimlənməsi, idxalata dair gömrük rüsumları sistemlərində dəyişikliklər edilib, ticarət və logistika infrastrukturları təkmilləşdirilib. Sözügedən yol xəritələrinin həyata keçirilməsi ÜTT üzvlüyü üçün təməl rolu oynayacaq. Belə ki, yalnız ölkədə keçirilən iqtisadi islahatların 2020-ci ilədək əldə edilməsi gözlənilən ilkin nəticələr ortaya çıxandan sonra danışıqların fəallaşması və üzvlük məsələsinin başa çatdırılması mümkün olacaq.

Azərbaycan 1997-ci ildən Ümumdünya Ticarət Təşkilatı yanında müşahidəçi statusuna malikdir.

## Azərbaycanda bayram namazının vaxtı açıqlanıb

**Azərbaycanda bayram namazının vaxtı açıqlanıb. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) ONA -ya verilən məlumata görə, Ramazan ayının başa çatması ilə əlaqədar iyunun 5-i saat 08:00-da "Əjdərbəy" məscidində, saat 09:00-da isə "Təzəpir" məscidində bayram namazı qılınacaq.**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə bayram namazına qatılacaq.

Qazilər Şurasının verdiyi fətvada qeyd olunur ki, Fitr bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək.

Qeyd edək ki, Azərbaycanda Ramazan ayı mayın 6-da başlayıb.

İyunun 5-i və 6-sı Azərbaycanda Ramazan bayramıdır.

## Daha bir rusiyalı jurnalist Qarabağa qanunsuz səfər edib

**Rusiyanın nüfuzlu "Komsomolskaya Pravda" qəzetinin əməkdaşı Aleksandr Qrişin işğal altındakı Dağlıq Qarabağ torpaqlarına qanunsuz səfər edib. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, jurnalist Xankəndi və Şuşa ilə bərabər, təmas xəttinə yaxın ərazilərə də gedib.**

Aleksandr Qrişinin səfəri Bişkek protokolunun imzalanmasının 25-ci ildönümü ilə bağlı həyata keçirilib.

## Gürcüstan Saakaşvilinin ekstradisiyasını tələb edib

**Gürcüstan Baş Prokurorluğu sabiq prezident Mixail Saakaşvilinin Ukraynadan ekstradisiyasını tələb etməkdə davam edəcək. Modern.az Ukrayna KİV-nə istinadən xəbər verir ki, bu barədə prokuror Koka Katsidadze deyib.**

"Vətəndaşlığın itirilməsi və qaytarılması cinayət işi ilə bağlı deyil. Mixail Saakaşvili mütləq etdiklərinə görə məhkəmə qarşısında cavab verməli olacaq". Xatırladaq ki, Mixail Saakaşvili Gürcüstanda "vəzifə səlahiyyətlərini aşmaqda" və "korrupsiya"da ittiham olunur.

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019

# "Bu məsələ heç bir dialoq mövzusu və ya "bazarlıq" predmeti ola bilməz"

## Bahar Muradova: "Qanunla heç bir problemi olmayan, cinayət hadisəsi törətməyən və yaxud məsuliyyətə cəlb olunmaqdan çəkinməyən insanlar varsa, onlar Azərbaycana niyə gəlməsin ki?"

**"Nə Azərbaycanda müxalifət, nə də ölkə xaricində məskunlaşan, bu və ya digər səbəbdən miqrasiya edənlər yekcins mövqeli və vahid məqsədə qulluq edən insanlar deyillər. Ona görə bunlar haqqında qarşı tərəf kimi danışmaq mümkün deyil".**



**Milli Məclis sədrinin müavini Bahar Muradova** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi.

Qeyd edək ki, vaxtaşırı iqtidar və müxalifət arasında dialoqa zərurət olub-olmadığı barədə müzakirələr aparılır. Üstəlik, xaricdə yaşayan bəzi mühacir azərbaycanlıların Azərbaycan hakimiyyəti əleyhinə kampaniya aparması, onlara verilən kəskin reaksiyalara diqqət çəkən ayrı-ayrı müşahidəçilər hesab edir ki, bu "savaş"ın davamı çıxış yolu deyil. Belə bir yanaşma var ki, ölkə daxilində iqtidar və müxalifət arasında danışıqlar aparmaq bəlkə daha çox fayda verər. Belə olan halda, xaricdəki soydaşlarımızın ayrı-ayrı qüvvələrin təsiri altına düşməsini əngəlləmək mümkün görünür. Hakimiyyət daxilində bununla bağlı müzakirələr gedirmi? Konkret konsepsiya varmı?

**B.Muradova bu barədə aşağıdakıları bildirdi:** "Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycanda getdikcə konstruktiv mövqe daha çox görünməyə başlayır. Mən YAP nümayəndəsi olaraq bunu belə hiss edirəm. Bizim üçün siyasi partiyalar olaraq bir-birimizlə ünsiyyət saxlamağımız, nəyisə müzakirə etməyimiz üçün hansısa maneə görmürəm. Biz dəfələrlə bunu etmişik. Özümüz müstəqil də etmişik, beynəlxalq təşkilatların iştirakı və dəstəyi ilə də belə danışıqlar olub".

**Xanım vitse-spiker dialoq üçün bəzi ilkin amillərə nəzər salmağı vacib hesab edir:** "Gərək konkret olaraq müəyyən edilsin ki, bu danışıq nə üçün lazımdır, nəyə xidmət etməlidir və biz bu danışıqlardan nə gözləyirik? Hansı ümumi məqsədimiz, hədəfimiz var ki, biz onun naminə mütləq şəkildə bir araya gəlməliyik və oturub danışmalıyıq? Çünki Azərbaycanda seçilmiş ölkə prezidenti, iqtidar və onun komandası var. Eləcə də fəaliyyət göstərən müxtəlif yönümlü siyasi partiyalar, ictimai qurumlar, vətəndaş cəmiyyəti, insanlar və s. var. Həmçinin sadalanan qurumların həm özlərinin, həm də bir-biriləri ilə, eləcə də vətəndaşlarla əlaqədar münasibətlərini tənzimləyən qanunlar mövcuddur. Mənə görə bu proseslərin hər bir subyekti öz fəaliyyətini bu qanunlar çərçivəsində qurarsa onda bizim iki qarşıduran tərəf kimi yalnız üz-üzə danışıqlar və qarşılıqlı razılıq asasında müəyyənləşdirəcəyimiz çox az sayda problemlərimiz ola bilər. Hansı ki, bir tərəfin iqtidar olacağını qəbul etsək, ikinci tərəfin kim olmalı olduğunu, müəyyənləşdirmək lazım gələcək. Bunun isə çox problemli məsələ olduğunu zənnimcə, heç kəs inkar edə bilməz. Yox, əgər söhbət Azərbaycan dövlətinin maraqlarından və onun beynəlxalq nüfuzundan gedirsə, onda heç kəs ilkin şərt qoymadan, heç bir danışıq tələbi irəli sürmədən öz vəzifəsini və borcunu doğru-düzgün yerinə yetirməyə çalışmalıdır. Mən anlaya bilmirəm əgər ölkəmizə təcavüz olunursa - hərbi, siyasi, mənəvi - xalqımıza, vətəndaşlarımıza və bütövlükdə dövlətimizə və xalqımıza qarşı gözdən salma kampaniyası aparılırsa, biz hansısa dəvətmi gözləməliyik? Bütün bu dəyərlərimizi qorumaq üçün bizə dialoq şousumu lazımdır? Mənə görə bu məsələ heç bir siyasi dialoq mövzusu və yaxud "bazarlıq" predmeti ola bilməz. Amma əlbəttə ki, biz bu işi necə həyata keçirmək barədə məsləhətləşə və yollar araya bilərik. Milli-mənəvi dəyərlərimizin aşınmasına, təhqiramiz hərəkətlərə son qoymaq üçün sınanmış metodlardan, ictimai qınaq və tənbeh üsullarından istifadə edərək belə hərəkətlərə yol verən soydaşlarımızı belə hərəkətlərdən vaz keçməyə, Azərbaycana dost olmayan dairələrin əlində alət olmaqdan çəkindirməyə çalışmalıyıq. Ona görə də burada indiki halda danışıq üçün mütləq bir araya gəlməyi və yalnız bundan sonra hansısa tədbirlər görməyi təsəvvür edə bilmirəm".

**B.Muradova xaricdə yaşayan bəzi soydaşlarımızın mövqeyi ilə bağlı pozitiv müşahidələrini də bölüşdü:** "Şükür ki, bu gün getdikcə daha çox insanlar bu məsələdə milli maraqların yanında olduqlarını göstərirlər. İstər ölkə daxilində, istər ölkə xaricində, elə siyasi partiyalarda da... Mən onların bəyanatlarını, çağırışlarını eşidirəm. Bu, həm parlamentdə təmsil olunan, həm də parlamentdənkənar təşkilatların mövqeyində özünü göstərir. Lakin məhdud bir qrup var ki, neçə illərdir dəyişmədən qalırlar. Onların tələbləri də, mövqeləri, mübarizə üsulları da dəyişmir. Düşünmürəm ki, onların hansısa bir doğru yola gəlmək, islah olunmaq kimi bir niyyəti, yaxud belə bir imkanları qalıb. Bəziləri ona gətirən və ondan aparan bütün yollardakı körpüləri o dərəcədə yandırıblar ki, artıq özləri də nə vaxtsa bu körpülərin bərpa olunmasına ümid etmirlər. Amma bəziləri də var ki, özləri bu vəziyyətdən yorulduqlarını və kin-küdurət içində yaşamaq istəmədiklərini, Azərbaycana qayıtmaq, hətta bundan sonra ölkənin mənafeyi naminə çalışmaq istədiklərini deyirlər ki, bu da normaldır".

**Azərbaycana qayıtmaq istəyən insanların sonrakı taleyinə gəldikdə, B.Muradova dedi ki, o insanlar yekcins deyil:** "Bəziləri ən müxtəlif səbəblərdən ölkəni tərk ediblər. Və yəqin ki, burada da konkret yanaşma lazımdır. Ümumilikdə qanunla heç bir problemi olmayan, cinayət hadisəsi törətməyən, məsuliyyətə cəlb olunmaqdan çəkinməyən, insanlar varsa, onlar Azərbaycana niyə gəlməsin ki? Gəlsin, tənqidini də burada eləsin, sözünü də burada desin! Qanunla hər hansı bir problemi, yaxud da haqqında icra olunmamış məhkəmə hökmü yoxdursa, yerli seçkilərdə də iştirak edə bilər, parlament seçkilərində də. Gəlsinlər, qanunların verdiyi imkanlardan istifadə etsinlər! Bunun üçün hansısa bir problem görmürəm".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Putin reytinqində şok yaşayır

## Qabil Hüseynli: "Rus oliqarxları da ölkədə yaranan vəziyyətdən ciddi narahatdırlar"



**Rusiya prezidenti Vladimir Putinin reytinqinin zaman keçdikcə aşağı düşdüyü müşahidə olunur. Aparılan rəy sorğularının hər birində Kreml sahibi nüfuzunda eniş yaşayır.**

Bunun da səbəbləri barədə ekspertlər ən müxtəlif mövqelər səsləndirirlər. Səbəb kimi ilk olaraq, 2014-cü ilin martında Ukrayna ərazilərinə etdiyi təcavüzdən sonra Rusiyaya qarşı Amerika başda olmaqlab bir sıra dövlətlərin tətbiq etdikləri sanksiyalar önə çəkilir. Şimal qonşumuzda həyata keçirilən pensiya islahatları ilə kişilərdə yaş həddinin 65-ə, qadınlarda isə 63-ə qaldırılması daha çox qabardılır. Bu qərarların rus əhalisinin narazılığına səbəb olduğu və nəticədə bunun Putinin reytinqinə təsirsiz ötüşmədiyi qeyd olunur.

**Sabiq dövlət müşaviri Qabil Hüseynli** Rusiya prezidentinin nüfuzunun azalmasını bir neçə səbəblə sadaladı: "Putinin reytinqinin aşağı düşməsi qanunauyğundur. Onun hansı yollarla reytinqini qaldıracağı ilə bağlı birmənalı fikir söyləmək çətindir. Fakt odur ki, Amerika və digər Avropa ölkələrinin Rusiyaya qarşı tətbiq etdikləri sanksiyalar özünü göstərir. İlk dəfə olaraq, ötən il Rusiyada istehsalda heç bir artım olmayıb, əksinə, geriləmə olub. Üstəlik də statistika göstərir ki, eyni mənzərə bu il də yaşana bilər. Rusiyada iqtisadi vəziyyətdə böhrana yaxın durum yaranıb. Bu da ilk növbədə əhalinin maddi durumuna ciddi şəkildə təsir edir. Açığı, demək lazımdır ki, bir il əvvəl maddi durumu yaxşı olan bir adam hazırda yoxsulluq vəziyyəti yaşayır. Yoxsulluq səviyyəsi də durmadan artır. Bunu ölkənin rəsmi statistikası da göstərir. Əvvəllər Putinin reytinqi aşağı düşəndə hər hansı bir ölkə ilə qalmaqal yaradılır, yaxud da kiçik bir lokal xarakterli müharibə vəziyyəti yaradırdılar. Bu səbəbdən militarist olan rus xalqı arasında Putinin reytinqi qalxırdı. Hər hansı müharibə, toqquşma rus xalqında Putinin nüfuzuna hər zaman ciddi təsir göstərib. İndi belə bir hal yoxdur. Suriyadakı vəziyyət heç də Rusiyaya ciddi xallar gətirmədi. Bu gün oraya gedən, orada xərclənən pullar ölkənin büdcəsindən xeyli vəsait qoparır. Ukrayna ilə vəziyyət də qarşıdurma həddindədir. Rus oliqarxları da ölkədə yaranan vəziyyətdən ciddi narahatdırlar. Çünki ölkədə iqtisadi artımın yerində sayması, infilyasiya, iqtisadi rəqəmlərin artmaması ilk növbədə, oliqarxların cibinə təsir göstərir. Üzə vurmasalar da, onlar qəlblərində vəziyyətin getdikcə ağırlaşmasından ciddi şəkildə narahat olmağa başlayıblar. Rusiyadan xarici kapital artıq çoxdan çıxmağa başlayıb. Xüsusilə yüksək texnologiyalı xarici şirkətlərin böyük əksəriyyəti ölkəni tərk edib, qalanları da artıq tərk etməkdədir. Bütün bunlar da ölkədəki ümumi ovqata təsir göstərir. İnsanlar görürlər ki, ölkələrinə texnologiyalar gətirən xarici şirkətlər ölkədən gedirlər. Bütün bunlar da texnologiyanın inkişafına təsirsiz ötüşmür. Rus əhalisi kifayət qədər təhsillidir, ətraflarında baş verənlərə çox kəskin şəkildə reaksiya verməyi bacarırlar, öz hüquqlarını müdafiə etməyə dərhal qalxırlar. Yaşayış durumlarında bir dəyişiklik olan kimi bunu büruzə verirlər. Rus cəmiyyətində hazırda mübariz əhval-ruhiyyəyə köklənmə prosesi gedir. Bunlar özünü bəzi yerlərdə baş qaldıran etiraz dalğaları ilə göstərir".

**Q.Hüseynli rus mətbuatının da Putini "vurduğunu" söylədi:** "Ölkə siyasəti əvvəl bəzi informasiya vasitələrində ehtiyatlı tənqid edilsə də, indi belə deyil, açıq şəkildə, kəskin formada tənqidi yazılar dərc olunur. Hətta Putinin səhhətində ciddi problemlərin olması barədə gündəmə xəbərlər də buraxılır, göstərilir ki, o problemləri ilə əlləşir. Bir növ göstərmək istəyirlər ki, ölkənin ümumi durumuna Putin diqqət etməyi bacarmır. Belə hallarda Putin bir qayda olaraq atla gəzintiyə çıxır, yaxud da xokkey oynayır. Sonuncu dəfə sorğu keçirildən sonra xokkey oynadı və bu zaman meydançada ayağı ilişərək yıxıldı. Bundan sonra onun başının xalçadan kənarda buza dəydiyi yönündə məlumatlar mətbuatda getməyə başladı. Səhhəti bir daha ön plana çəkildi. Bu fikirlərin doğru olduğunu söyləyə bilmərik. Amma reallıq budur ki, Putinə olan etimad günü-gündən azalmaqdadır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019

# Putin Paşinyanın “qələmi”ni qırıb - İrəvanın fiaskosu, Bakının Qarabağ gözləntisi

## Erməni baş nazir Qazaxıstanda pərt edildi - səbəblər; Kremlin Ermənistana əsas sürprizi hələ qabaqdadır...

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da ATƏT-in Minsk Qrupunun Fransadan, Rusiyadan və ABŞ-dan olan həmsədrlərini qəbul edib. Bundan qabaq vasitəçilər İrəvan və Xankəndində olmuşdular. Həmsədrlər yəqin ki, az sonra regiona səfərin yekunu ilə bağlı növbəti bəyanatla çıxış edəcək, orada konfliktin sülh yolu ilə həllinin vacibliyini xüsusi qeyd edəcəklər.**

Ancaq bəyanatsız da aydındır ki, vasitəçilərin daha bir səfəri çətin ki, Qarabağ danışıqlarına canlanma gətirsin. Sadə səbəbə: həmsədrlər hələ də işğala məruz qalan tərəflə - Azərbaycanla işğalçı Ermənistana eyni gözlə baxırlar. Konfliktin həllində əsas kimi BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 məlum qətnaməsini deyil, “qarşılıqlı güzəştlər” yolunu məqbul sayırlar.

Belədə sual ortaya çıxır: işğala məruz qalan tərəf işğalçıya hansı güzəşti edə bilər və ya etməlidir? Bu, işğalçıya “sığal çəkmək” və onu şirnikləndirmək demək deyilmi?

Şübhəsiz, elədir. Məhz “sığal”a arxayın olan Ermənistanın müdafiə naziri David Tonoyan az öncə Azərbaycanı yeni ərazi işğalı ilə hədələmişdi. Baş nazir Nikol Paşinyan isə onu dəstəkləyərək bəyan etmişdi ki, “Tonoyan mənim sözümü deyir”. Belə olan surətdə Azərbaycana yeganə yol kimi öz torpaqlarını güc yolu ilə işğalçı qüvvələrdən azad eləmək qalır. Görünür, proseslər buna doğru da gedir.

*****

“ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin sülh yolu ilə həlli vacibliyini dəfələrlə bəyan ediblər. Lakin bu bəyanatlar dekorativ sözlərdən başqa bir şey deyil. Çünki Ermənistan özünü qeyri-konstruktiv aparır. İstənilən danışıqlardan qabaq onlar müəyyən təxribatlara əl atırlar. Buna görə də münaqişənin həll yollarından biri kimi hərbi variant gündəmdədir”. Bunu politoloq Arzu Nağıyev Qarabağ problemi ətrafında son durumu şərh edərkən deyib.




**Politoloq haqlı olaraq vurğulayıb ki, Azərbaycan öz ərazilərini işğaldan azad eləməklə heç kimə müharibə elan etmir:** “Biz, sadəcə, öz ərazilərimizdə antiterror əməliyyatları keçiririk. Bunun da qarşısını heç bir xarici qüvvə ala bilməz. Ona görə də BMT TŞ-nin qəbul etdiyi qətnamələrdə bu ərazilər Azərbaycan torpaqları olaraq təsdiq edilib və biz torpaqlarımızı işğaldan azad etmək üçün istənilən hərbi əməliyyat keçirə bilərik”, - deyə o əlavə edib.

Vəziyyətin müharibə həddinə çatıb-çatmayacağı isə müstəsna olaraq Ermənistanın hazırkı rəhbərliyindən, konkret olaraq Nikol Paşinyandan, bir də Rusiyanın məsələdə mövqeyindən asılıdır. O Paşinyan ki, Moskva ilə, prezident Vladimir Putinlə münasibətlərini nizama sala bilməyib. Kreml hələ də ona şübhəli nəzərlə baxmaqda davam edir. Hətta Pitinin yaxın dostu, eks-prezident Robert Köçəryanın həbsdən çıxması da, deyəsən, Putinin üreyini “soyutmayıb”.

Bu da növbəti isti fakt. Qazaxıstanın paytaxtı Nur-Sultanda (keçmiş Astana) Avrasiya İqtisadi Birliyi Ali Şurasının sammiti çərçivəsində əvvəlcədən, mayın 29-na planlaşdırılan Paşinyan-Putin görüşü baş tutmayıb. Erməni KİV-i yazıb ki, Paşinyan bununla bağlı öz səfərini yarımçıq qoyub və Ermənistana qayıdıb. Hərçənd baş nazirin mətbuat katibi Vladimir Karapetyan bunu əlüstü təkzib etməyə çalışıb.

“Nur-Sultanda Ermənistanın baş naziri Nikol Paşinyanla Rusiya prezidenti Vladimir Putin arasında görüşün baş tutmamasında məqsədli heç bir şey yoxdur”. Bunu Rusarminfo saytına açıqlamasında Rusiya Dumasının MDB, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş Komitəsinin sədri Leonid Kalaşnikov deyib (Axar.az). O, görüşün baş tutmasının “təsadüfi ola biləcəyini” bildirib.

**Deputat məsələnin Ermənistan-Rusiya münasibətlərinə təsir etməyəcəyini də iddia edib. Onun fikrincə, bu, mövcud vəziyyətlə bağlı ola bilər.** “Burada hər şey ola bilər, amma ehtimal ki, hansısa əsaslı səbəb olub. Çünki Rusiya prezidenti adətən nəyisə nəzərdə tutursa, o, bunu mütləq edir. Deməli, görüşün gerçəkləşməsinə həqiqətən imkan verməyən bəzi hallar olub. Bunda hansısa məkrli motivlər axtarmağa ehtiyac yoxdur. Ehtimal ki, sadəcə, belə alınıb, həm də ki, oktyabrda Vladimir Putinin Ermənistana rəsmi səfəri gözlənilir. Düşünmürəm ki, bunda qərəzlilik var”, - deyə deputat bildirib və əlavə edib ki, buna “düşmənçilik aktı” kimi baxmağa gərək yoxdur.

*****

Ancaq Kalaşnikovun nə söyləməsindən asılı olmayaraq, gerçək dəyişməz qalır. Məsələ ondadır ki, Rusiya lideri içdiyi çoxsaylı sədaqət andlarına rəğmən, həqiqətən Paşinyandan xoşlanmır. Hətta obrazlı desək, Putin onun “qələmini” artıq qırıb. Yoxsa Rusiya prezidenti Nur-Sultanda Paşinyanla 3-4 dəqiqəlik də olsa görüşüb şəkil çəkdirərdi.

“Paşinyanın Putinlə münasibətlərdə hər şeyin qaydasında olması barədə aydın diplomatik bəyanatlarına rəğmən, Rusiya-Ermənistan əlaqələrinin təzədən qurulmasına ehtiyac var. Nədən ki aydındır ki, erməni inqilabına Rusiyada təhdid kimi baxılır. Avrasiya Birliyi və Rusiya da erməni inqilabı üçün təhdidi qismindədir”. Bu fikir 1in.am saytındakı məqalədəndir.

İnamsızlığın kökü də əslində buradadır. Yəni istənilən halda Putin heç vaxt Paşinyana ürək qızdırmayacaq. Sonuncunun Qazaxıstanda pərt edilməsinin nədəni ən əvvəl burada axtarıla bilər. Bu da o anlama gəlir ki, Kremlin satellit Ermənistana əsas sürprizi hələ qabaqdadır. Odur ki, Bakı da gözdə-qulaqda olmalıdır. Hər şeydən öncə Qarabağ məsələsini deyirik...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Dünyanın yeni neft-qaz strategiyası Bakıda müzakirə olunur

## Paytaxtımızda keçirilən beynəlxalq neft-qaz sərgi-konfransında maraqlı məlumatlar açıqlanıb

**İki gündür Bakıda Xəzər regionunda energetika sektorunun nəhəng tədbiri sayılan 26-cı Beynəlxalq Xəzər Neft və Qaz sərgisi başlayıb. Bu il sərgidə dünyanın 34 ölkəsini təmsil edən 290 şirkət iştirak edir. İştirakçılar arasında ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, MDB ölkələri, Türkiyə və digər ölkələr var. İştirakçı şirkətlər neft hasilatı və enerji resurslarının daşınması, neft-qaz saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıq, xidmət və innovativ texnologiyaların geniş çeşidini, platforma və üzən qazma qurğularını, boruların çəkilməsi və boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi, eləcə də servis xidmətlərini təqdim edirlər.**

Açılışında ölkə prezidentinin də iştirak etdiyi sərgi çərçivəsində dünən eyniadlı ikigünlük konfrans da start götürüb. Konfransa dünyanın 30-dan çox ölkəsini təmsil edən 600-dən artıq nümayəndə qatılıb. Tədbirin ənənəvi iştirakçıları arasında SOCAR, BP, “Equinor”, “Petronas”, “Inpex”, “Dentons”, “Socar AQS”, “Total”, “Nobel Upstream” və digər dünyaca məşhur şirkətlər yer alır.

Konfransda çıxış edən **Azərbaycanın energetika naziri Pərviz Şahbazov** dünya neft bazarında gedən proseslərdən danışıb. Bildirib ki, 2014-cü ilin II yarısından bu günə qədər neft bazarında qeyri-sabitlik müşahidə olunur: “OPEC+ formatında bazarda dəyişən vəziyyətə uyğun çevik tənzimləmə tədbirlərinə baxmayaraq qeyri-sabitlik hələ də qalmaqdadır”.

**Nazirin sözlərinə görə, neftin 70 ABŞ dolları ətrafında qərarlaşan qiyməti qənaətbəxşdir:** “Bununla belə, həm istehsalçılar, həm də istehlakçıların maraqlarına uyğun qiymət sabitliyinin və bu məqsədlə tələb-təklif balansının qorunub saxlanılması ehtiyatlı düşünülmüş addımlar atılmasını zəruri edir”.

**P.Şahbazov bildirib ki, OPEC+ razılaşması çərçivəsində hasilatda gündəlik təxminən 2 milyon barellik azalma, bazardakı artıq təklifi tam kompensasiya edə bilmir:** “Buna görə də indi OPEC+ ölkələri qarşısında duran prioritet məsələ kommersiya neft ehtiyatlarını müvafiq səviyyəyə çatdırmaqdır. Bu, qlobal tələbatla bağlı müşahidə olunan risklərdən sığortalanmaq üçün də əhəmiyyətlidir”.




**Nazir həmçinin deyib ki, ötən il neftin qlobal istehlakında artım 1,4 faiz olsa da, bu il dünyada neftə gündəlik tələbatın 1,2 milyon barelə qədər azalacağı proqnozlaşdırılır:** “Ötən il dünyada enerjiyə tələbat son illərdə ən yüksək səviyyədə olsa da, Avropada enerjiyə tələbat xüsusilə də bərpa olunan enerjidən istifadənin genişlənməsi və enerji səmərəliliyi nəticəsində azalıb. 2050-ci ilə qədər neft-qazın ümumi idxalındakı nisbəti 55 faizdən 20 faizə düşəcək. Hazırda ABŞ və Çin arasındakı ticarət mübahisələri də qlobal iqtisadi inkişafa təsir edir və neftə tələbatı azaldan amil kimi nəzərdən keçirilir. Bütün bunlar isə göstərir ki, bazarda qiymətlərin sabitliyi üçün hasilat vasitəsilə tənzimləmə əsas nailiyyətdir”.

**P.Şahbazov həmçinin bildirib ki, 2020-ci ildə Azərbaycanda qaz hasilatının həcminin 40 milyard kubmetrdən çox olacağı planlaşdırılır:** “Bir il əvvəl açılışı həyata keçirilən Cənub Qaz Dəhlizi layihəsi enerji təhlükəsizliyi kimi strateji maraqlara, iqtisadi inkişafa və qlobal əməkdaşlığa yönəlmiş layihədir. 2020-ci ildə Xəzər dənizindən Avropaya yeni mənbədən təbii qazın çatdırılması üzrə işlər yekun, onun genişləndirilməsi istiqamətində işlər isə başlanğıc mərhələdədir. Cənub Qaz Dəhlizi imkan verir ki, Azərbaycan enerji strategiyasını həm də təbii qaz sektorunda inkişaf etdirsin. Cənub Qaz Dəhlizi üzrə görülmüş işlərdə artıq nəticələr əldə edilib”.

**Onun sözlərinə görə, TANAP-la indiyə kimi Türkiyəyə 1.8 milyard kubmetr qaz nəql edilib. Nazir deyib ki, “Şahdəniz” yatağından qaz hasilatı 2018-ci illə müqayisədə bu il 6 milyard kubmetr, 2020-ci ildə isə 8,5 milyard kubmetr artacaq:** “Beləliklə, 2020-ci ildə ölkədə ümumi qaz hasilatının 40 milyard kubmetri ötəcəyi gözlənilir”.

**BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counsun çıxışından aydın olub ki, BP şirkəti gələn il “Şahdəniz” yatağının dərin perspektiv strukturlarında kəşfiyyat qazma işlərinə başlamağı planlaşdırır:** “"Şahdəniz" yatağının dərin perspektiv strukturlarını qiymətləndirmək üçün gələn il bir sıra kəşfiyyat işləri planlaşdırırıq. Bu, mövcud işlənilən “Şahdəniz” yatağının altında yerləşən əlverişli qaz perspektiv strukturudur. Orada ehtiyatların potensialı trilyonlarla kubfut həcmindədir. 2020-ci ildə burada qazma işlərinə başlanılması planlaşdırılır".

**SOCAR prezidenti Rövnəq Abdullayev isə bildirib ki, Azərbaycanın “Abşeron” və “Qarabağ” yataqlarında ilk məhsulun alınması 2021-2022-ci illərdə gözlənilir. Onun sözlərinə görə, “Equinor” şirkəti ilə birgə layihələndirilən “Qarabağ” yatağının neft və qaz ehtiyatları ilə bağlı gözləntilər böyükdür:** “Yaxın zamanda işlənmənin FEED mərhələsinə keçməsi nəzərdə tutulub”.

Konfransın gedişində SOCAR-la Rusiyanın “Tatneft” şirkəti arasında neft-kimya məhsullarının tədarükü barədə saziş imzalanıb.

**R.Abdullayevin jurnalistlərin suallarına cavab olaraq verdiyi məlumatdan aydın olub ki, SOCAR Rusiyaya məxsus Antipinsk neft emalı zavoduna maraq göstərir. Onun sözlərinə görə, hazırda zavodun alınması ilə bağlı danışıqlar aparılır, amma hələ ki bu istiqamətdə konkret nəticə yoxdur:** “"Rusiya bazarı çox böyükdür və bizə maraqlıdır. Ümumilikdə isə SOCAR dünyanın hər yerində danışıqlar aparır".

**❑ İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019



# Seçici siyahıları dəqiqləşdi, hökumət nəyə hazırlaşır?

## Sərdar Cəlaloğlu: "İqtidar seçki keçirmək üçün əlverişli məqam gözləyir"

**Azərbaycanda seçicilərin siyahısının dəqiqləşdirilməsi prosesinə yekun vurulub. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, hazırda Azərbaycanda 5 milyon 212 min 902 seçici var. Seçicilərin 50.83 %-ni qadınlar, 49.17 %-ni isə kişilər təşkil edir. M.Pənahovun sözlərinə görə, bu il ötən illə müqayisədə seçicilərin sayında 21 min nəfər artım müşahidə olunub.**

MSK sədrinin seçici siyahısını açıqlaması bu ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar ola bilər. Lakin bəzi təhlilçilər erkən parlament seçkiləri olacağını proqnozlaşdırırlar.

Seçici siyahısının dəqiqləşməsi də onu deməyə əsas verir ki, MSK tərəfindən seçki keçirmək üçün texniki hazırlıq baxımdan heç bir problem yoxdur.

*Bəzi analitiklərin fikrincə, yeni parlament gənc, Qərb təhsilli kadrlardan daha çox təşəkkül tapacaq. Bu və digər suallarımızı Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu cavablandırıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:*

***- Sərdar bəy, bələdiyyə seçkiləri bu gün siyasi partiyalar və xalq üçün nə dərəcədə əhəmiyyətlidir?***

- Azərbaycanda bələdiyyələrin fəaliyyəti klassik bələdiyyə işindən uzaqdır. Xalq nə bələdiyyələrdən bəhrələnir, nə onlar bir xeyir verə bilir. O mənada Azərbaycanda bələdiyyə seçkilərinə maraq azalıb. İkincisi, bələdiyyə seçkiləri saxtalaşdırılır və insanlarda seçkiyə maraq qalmır. Bu gün insanları Qarabağ, ölkənin müstəqilliyi, suverenliyindən daha çox deputatlıq düşündürür.

***- Belə məlumatlar dolaşır ki, oktyabrda erkən parlament seçkisi ola bilər. Sizdə belə xəbərlər varmı?***

- Məndə olan müəyyən informasiyalara görə, referendum keçirilə, növbədənkənar parlament seçkiləri təyin edilə bilər. Lakin bu, şayiələr şəklində gəzir və biz dəqiq deyə bilmərik ki, MSK seçici siyahısını dəqiqləşdirməklə nəyə hazırlaşır. Sadəcə, məndə olan xəbərə görə, referendum və seçki gündəmdədir. Lakin xarici faktorları nəzərə almalıyıq, beynəlxalq səbəblər seçki keçirməyə imkan vermir.

***- Nədən ibarətdir həmin xarici səbəblər?***

- Söhbət Qarabağla bağlı situasiyadan, Avropanın, Rusiyanın münasibətindən gedir. İqtidar bir addım atarkən xarici güclərin aktivliyini nəzərə alır. Bəs niyə görə konstitusiyada müharibə şəraitində seçkilərin dayandırılması maddəsi var? Düzdür, indi seçkilər dayandırılmayıb, amma seçkilərin keçirilməsi vaxtının müəyyən edilməsi həm də xarici təsirlərdən asılıdır. Elə hesab edirəm ki, iqtidar seçki keçirmək üçün əlverişli məqam gözləyir. Bu, Qarabağda müharibənin aktivliyi, Rusiyanın hansısa məkrli planı və ya Avropanın Azərbaycan qarşısında qoyduğu şərtlərin yerinə yetirilməsindən, yəni situasiyadan asılıdır.



***- Ümumiyyətlə, növbədənkənar parlament seçkilərinin keçirilməsinə hansı zərurət var?***

- Əgər demokratik parlament seçkiləri keçiriləcəksə, zəruridir. Bu zaman iqtidardaxili müxalifət olacaq, küçə müxalifətinə son qoyulacaq, siyasət Milli Məclisə transformasiya olunacaq. Xalq öz taleyinin Milli Məclisdə həllinə şahidlik edəcək. İndiki Milli Məclisdə müxalifət yoxdur, camaat öz problemlərinin orada müzakirə olunduğunu görmür və bu halda laqeyd qalırlar.

Bir yerdə durğunluq varsa, o cəmiyyət ölür. Eyni adamın icra hakimiyyətində, parlamentdə qalması yeni təşəbbüslərin meydana çıxmamasına səbəb olur.

***- Sərdar bəy, belə proqnozlar səslənir ki, növbəti parlamentdə Qərb təhsilli gənclərə üstünlük veriləbilər. Sizcə, Qərbdə oxumuş kadrların siyasətə gəlməsi islahatların sürətlənməsinə təkan verə bilərmi?***

- Şimali Koreya lideri, Qəddafi, Bəşər Əsəd xaricdə oxuyublar. Liderin kimliyi onun əcnəbi dil bilməsi, harada təhsil alması ilə bağlı deyil. Yaş kriteriyası, xarici dil bilmək kabinet formalaşdırmır. Çünki Amerikada oxuyan insan oranın həyatı ilə düşünür, Azərbaycandakı adət-ənənələr onda gülüş yaradır. Liderin kimliyi onun xalqa, dövlətə bağlı olmasıdır. Bizdə bir konyuktura siyasəti var, öz yaxınlarını vəzifələrə gətirirlər, uşaqlarını xaricdə oxudurlar. Bu, həm iqtidar, həm müxalifətdə var.

Məsələn, xaricdən qayıdıb müxalifətə qoşulan gənclərimiz də olub, onların necə müxalifət olması görünür. Bizə milli təhsil alan, ana dilini mükəmməl bilən kadrlar lazımdır. İngiliscə bilən adam ingilis təmsilçisi deyil ki? Baxın, bizdə nə üçün rusca danışanlar müstəqilliyə nifrət edirlər? Çünki aldıqları təhsil o başı yetişdirir. Sən hansı millətin təhsilini almısansa, onun vətəndaşısan. Hesab edirəm ki, düzgün kadr siyasəti Azərbaycanda təhsili alanlarla aparıla bilər. Kosmopolitlərin vəzifələrə gətirilməsi ölkəni məhv edə bilər. Biz hələ də milli kimliyimizə qayıda bilməmişik. Ona görə cəfəng söhbətlərdir ki, ay xaricdə oxuyan cavanlar vəzifələrə, parlamentə gəlsinlər.

***- Amma Saakaşvili də xaricdə təhsil almışdı...***

- Siz indi onu mənə nümunə göstərmək istəyirsiniz, amma Saakaşvili Gürcüstan yox, Ukrayna vətəndaşıdır. O, Amerika tərəfindən hazırlanıb, arvadı hollanddır, o ölkənin vətəndaşıdır. Sən Saakaşvilini gürcü kimi təqdim etməməlisən. Saakaşvili gürcüdən çox avropalıdır.

Məsələn, Yekaterina almanların hazırladığı plan idi və Pyotr onu aldı. O vaxta qədər türk qadınlar dominant idilər. Yekaterina gəldi, Rusiya Avropa tərəfindən idarə olundu. Dünyada belə siyasi nümunələr çoxdur. Bizim kişilər başqa millətin qadını ilə ailə quranda həmin millətdən olurlar.

***- Axı Qərbdə oxuyan gənclər rüşvətsiz, demokratik dəyərlərə qiymət verilən mühitdə yetişib gəlirlər və Azərbaycan üçün hansısa işlər görə bilərlər...***

- Mən bu fikirlə qəti razı deyiləm. Çünki rüşvət onun qanındadır. Onun dədəsi rüşvət yığıb oğlunu xaricdə oxudubsa, həmin övlad qayıdan da rüşvətxor ola bilər.

O, sevgi, məhəbbət nümayiş etdirə bilməz. Həmin gənc valideyninə deyəcək ki, ayda 200 manat maaş alırsan, 10 milyonluq mülkün haradandır?

Atasının aldığı rüşvətə etiraz etməyən gənc Avropadan bura gəlib nə edəcək? Əgər siz deyən kimi xaricdə oxuyub qayıdan tələbələr Qərb dəyərlərinin tətbiqini istəsələr, onda valideynləri ilə əlaqəni qırmalıdırlar. Bu zaman dədələri onları vəzifələrə, parlamentə qoymayacaq.

Onlar da gəlib ataları kimi rüşvəti davam etdirməlidirlər. Yox, siz deyən kimidirsə, onda Qərb təhsilli həmin tələbə prokuror oldusa, ilk növbədə cinayət işini atasına qarşı qaldırmalıdır. Sizcə, bunu edəcəkmi?

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

## Əcnəbiyə 100 min manata ölkədə yaşamaq hüququ verilir-yeni qanun

### Azərbaycanda banklara 100 min manat qoyan əcnəbi ölkədə yaşaya biləcək



**Azərbaycanda fəaliyyət göstərən banklara müddətli zəmanət müqaviləsi əsasında azı 100 min manat məbləğdə pul vəsaiti qoyan əcnəbiyə ölkədə yaşamaq icazəsi veriləcək.**

Musavat.com-un məlumatına görə, bununla bağlı Miqrasiya Məcəlləsinin 45-ci (Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar) maddəsinə dəyişiklik təklif edilib.

Təklif edilən dəyişikliyə görə, Azərbaycanda fəaliyyət göstərən banka müddətli əmanət müqaviləsi əsasında pul vəsaiti qoymaqla Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazə alan şəxslərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən 3 iş günü müddətində aidiyyəti banka göndərilir. Həmin siyahıda göstərilən şəxslərin müddətli əmanətinin məbləği azaldılaraq 100 min manatdan aşağı düşdükdə və ya əmanət müqaviləsinə xitam verildikdə bank bu barədə müvafiq icra hakimiyyəti orqanına 3 iş günü müddətində məlumat verir.

Bundan əlavə, məcəlləyə yeni 53.2-1-ci maddəsi əlavə edilir.

Təklif olunan maddəyə əsasən, Azərbaycan Respublikasının iqtisadiyyatına azı 500 min manat məbləğində investisiya yatırmış şəxslərdən bu məcəllənin 53.1.7-ci maddəsində nəzərdə tutulan sənəd tələb olunmayacaq.

**Məcəllənin 53.1.7-ci maddəsi isə belədir:** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin alınması (müddətinin uzadılması) üçün əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olması barədə sənəd (yaxın qohumu olan Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış şəxs ölkədə qaldıqları vaxtda onların təminatını öz üzərinə götürdüyü hallar istisna olmaqla) təqdim etməlidirlər.

Miqrasiya Məcəlləsinə dəyişiklik müzakirələrdən sonra səsvermeyə qoyularaq I oxunuşda qəbul edilib.

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019





# Final matçından doğan nəticə- Bakı ən yaxşı ev sahibidir

**Azərbaycan bu dəfə də bədxahlarını məyus etdi. Avroliqanın finalında “Çelsi”-"Arsenal" oyununun Bakıda keçiriləcəyi xəbəri yayılan gündən anti-Azərbaycan qüvvələr, erməni lobbisi ölkəmizə qarşı qarayaxma kampaniyasına start vermişdilər. Əlbəttə, məqsəd bəlli idi və siyasi xarakter daşıyırdı, qərəzli olduğu da aksiomdur. Ölkəmizdə guya qonaqların təhlükəsizliyinə təminat olmadığına, infrastrukturun standartlara cavab vermədiyinə dair yalanlar tirajlanırdı. Azərbaycan dövləti isə bunlara çox təmkinlə, daha konkret desək, əməli işlə cavab verdi!**

UEFA Avropa Liqasının Bakıdakı final qarşılaşmasının uğurla keçirilməsi bir daha Azərbaycanın böyük beynəlxalq tədbirləri, o cümlədən bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını əyani göstərdi.

Ortaya ciddi, nizam-intizamlı iş qoyulmaqla sübut olundu ki, Azərbaycan bu cür nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura - idman komplekslərinə, xidmət sektoruna, təhlükəsizliyə, qonaqpərvərliyə malik güvənli ölkədir.

Azərbaycanın müvafiq qurumlarının, bütövlükdə dövlətin yüksək təşkilatçılığı nəticəsində hər hansı bir problem, ciddi insident olmadı. Hətta Bakını, Azərbaycan xalqını təxribata çəkmək üçün Bakıya “desantlar” da göndərilmişdi. “Arsenal”ın erməni əsilli oyunçusu Mxitaryanın adı yazılan köynəklər geyinmiş “turistlər” də göndərilmişdi Bakıya. Onlara da burada güldən ağır söz deyilmədi. Sadəcə, təxribatçı olmaları de-şifrə edildi, nəzarətdə saxlanıldılar. Səbirli, təmkinli vətəndaşlarımız da bu təxribata uymadı.

Oyundan xeyli əvvəl, finalçılar müəyyən olunandan sonra matçın niyə uzaq Bakıda keçirilməsindən - guya azarkeşlərin gələ bilməməsindən tutmuş təhlükəsizlik, hotellərin baha qiyməti, “Arsenal” klubunun erməni əsilli oyunçusu Henrix Mxitaryana qarşı hansısa mənfi münasibət olması və onun təhlükəsizliyinə təminat verilməməsi kimi iddialar ortaya atıldı. Lakin mövcud reallıq bütün bu iddiaların əsassız olduğunu aydın göstərdi: Klublar heç onlara verilən biletləri belə sata bilmədilər, Mxitaryana ən yüksək səviyyədə təhlükəsizlik təminatı verildi, kifayət qədər azarkeş oyuna gəldi və bu bayramın iştirakçısına çevrildi, AZAL bütün reysləri normal şəkildə qəbul etdi. Hava limanında hər hansı problem yaşanmadı, hotellər və qonaqların yerləşməsi, xidmət, nəqliyyat yüksək səviyyədə təmin olundu.

İngilis azarkeşlərin sərt xüsusiyyəti, dəliqanlı, davakar olduğu da sirr deyil. Bu da gözə alınmaqla, birmənalı şəkildə demək olar ki, Bakı bəlkə bu kimi yarışmaların tarixində heç bir ciddi insidentin yaşanmadığı, tam təhlükəsiz şəhər kimi tarixə düşdü.

Oyundan əvvəl fan-zonaların yüksək səviyyədə təşkili, azarkeşlərin ehtiyaclarının ödənilməsi, onlar üçün mümkün olan şəraitin yaradılmasını da bütün tərəflər - hər kəs etiraf etdi, bu, xüsusi qeyd edildi.

Bədxahlar gözünü daha çox oyun gününə dikmişdilər ki, hansısa texniki problem, çətinlik yaranacaq və bunun üzərindən ölkəmizə qarşı piara başlayacaqlar. Bu fürsəti də Azərbaycan onlara vermədi. Oyun günü istər azarkeşlərin stadiona gəlişi, oyunu seyr etməsi, istərsə də geriyə dönüşü elə nizamla, peşəkarlıqla təşkil olundu ki, sıxlıq yaranmadı. Stadionu tərk edən azarkeşləri müvafiq qurumlar ekspress avtobuslarla müvafiq ünvanlara daşıdılar, metro gecə saat 3-dək işlədi.

Bir məqam diqqəti xüsusi cəlb etdi: hüquq-mühafizə orqanları, asayiş keşikçiləri qonaqlarla peşəkar, sivil və mehriban davrandılar. Hətta içkili ingilis azarkeşlərin oyun başlamazdan saatlar əvvəl paytaxtın mərkəzi hissəsində süni şəkildə qarşıdurma yaratmaq cəhdlərinə qarşı dözümlü, humanist yanaşıldı. Təhlükəsizliyə cavabdeh asayiş keşikçilərinin davranışı diqqətdən yayınmadı.

Bütün digər böyük tədbirlərdə olduğu kimi, könüllülərin peşəkar fəaliyyəti də ürəkaçan, işlərin rahat, sakit şəkildə həllinə böyük dəstək verdi. Bəllidir ki, Azərbaycanda könüllülük artıq bir hərəkat, institut kimi formalaşıb, gənclərimiz bu prosesdə aktivlik, dövlətin yanında olduğunu nümayiş etdirir.

Bəzi xarici KİV-lər bütün bəhanələri əlindən alınmış uşaq kimi, guya stadionun dolmaması, boş yerlərin qalması barədə iddialar səsləndiriblər. Amma canlı yayımlardan, videolardan, fotolardan da aydın görünür ki, stadion tamamilə dolub. İlkin hesablamalara görə, stadionda 60 minə yaxın azarkeş oyunu seyr etdi.

Qərəzli KİV-in daha bir “uşaq bəhanəsi” - matçın sakit, emosiyasız keçdiyini qüsur kimi sırımağa çalışırdılar. Amma azarkeşlərin çılğın davranışları göz önündə idi. Bu kimi iddiaların ortaya çıxması sadəcə, Azərbaycanda keçirilən final matçı ilə bağlı heç kim diqqəti cəlb edə biləcək nöqsan tapa bilməməsindən qaynaqlanır. Necə deyərlər, “aşığın sözü qurtaranda dalay-dalay deyər”...

İstər Azərbaycanın rəsmi dairələrinin, dövlət orqanlarının səmərəli fəaliyyəti, mümkün problemlərin öncədən müəyyənləşdirilməsi və onların aradan qaldırılması ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirməsi, istərsə də tədbirin əsas təşkilatçısı olan UEFA rəhbərliyinin prinsipial mövqeyi, bütün məsələlərə vaxtında müdaxilə etməsi, şayiələrə imkan yaratmaması tədbirin uğurla keçirilməsinin başlıca səbəbləridir.

Beləliklə, bu tədbir Azərbaycan dövlətinin, hakimiyyət strukturlarının olduqca səmərəli və peşəkar fəaliyyətinin əyani təsdiqi oldu.

Ölkəmiz beynəlxalq tədbir və yarışların keçirilməsində kifayət qədər təcrübəyə malikdir. Nisbətən kiçik tədbirlərin sayı çoxdur, biz ən irilərinə diqqətə edək: 2012-ci ildə keçirilən “Eurovision” yarışması, 2015-ci ildə keçirilən I Avropa Yay Oyunları, 2016-cı ildən bu yana keçirilən “Formula 1" yarışları da ən yüksək səviyyədə təşkil olunub.

Əvvəlkilər və son olaraq final matçının kimsənin irad bildirə bilməyəcəyi şəkildə baş tutması Azərbaycanın bu kimi beynəlxalq yarışlar üçün ən yaxşı ev sahibi olmasının bariz nümunəsidir.

Azərbaycan birmənalı şəkildə təsdiq etdi ki, 2020-ci ildə Avropa çempionatının 4 oyununu da yüksək səviyyədə təşkil etmək və uğurla keçirmək gücünə, bacarığına malikdir.

Azərbaycan faktiki olaraq bədxahlarına, qaragüruha məhz əməli fəaliyyəti ilə cavab verir. Gözəl taktikadır.



❑ **Elşad MƏMMƏDLİ**

# Müsavatın qurultay hazırlığı, Hikmət Hacızadənin qayıtmaq şərti

## “Əgər bu düzəlsə, o zaman qayıdıb-qayıtmayacağımı müzakirə edə bilərik”

**Müsavat Partiyasının 9-cu qurultayına hazırlıq davam edir. Bu barədə mayın 27-də novator.az-a danışan qurultay komitəsinin sədri, partiyanın İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirib ki, indiyədək 45 rayon-şəhər təşkilatında yığıncaq və konfranslar keçirilib, qurultaya nümayəndələr seçilib: “Qurultayın 321 nümayəndəsi bəllidir. 20-dən yuxarı yerli təşkilatda yığıncaq keçirilməsi gözlənilir. Hakimiyyətin basqılarının davam etməyəcəyi təqdirdə işimizi iyun ayının sonunda bitirib qurultay gününü müəyyənləşdirməyi planlayırıq”.**

Hazırda Müsavat qurultayı ətrafında gedən müzakirələrin əsasını keçmiş başqan, Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin başqanlığa namizəd olub-olmayacağı, geri dönəcəyi təqdirdə bunun partiyaya nələr verəcəyi yönündə səslənən mövqelər təşkil edir. Çoxları düşünür ki, sabiq başqanın partiya başqanlığına qayıdışı quruma yeni nəfəs gətirə bilər. 2014-cü ilin sentyabrında keçirilən qurultaydan sonra etiraz əlaməti olaraq Müsavatı tərk edənlərin geri qayıda biləcəkləri ehtimal edilir. Eyni zamanda İ.Qəmbərin birləşdirici siyasətçi olduğu da önə çəkilir.

Son qurultaydan sonra partiyanı tərk edən **politoloq Hikmət Hacızadə** “Yeni Müsavat”a açıqlamasında diqqətçəkən fikirlər səsləndirdi: “İsa bəyin Müsavat rəhbərliyinə qayıtması çox yaxşı olardı. Amma onu da qeyd etmək lazımdır ki, İsa Qəmbər axı heç yerə getməyib. Əslində Müsavat Partiyasını o idarə edir. Həqiqi olaraq başqan olmasa da, o, partiya Divanının üzvüdür, müzakirələrdə iştirak edir, sözü isə hər zaman keçir. Başqan olsa daha yaxşıdır, amma olmasa da, problem deyil, onsuz da var. Onun partiyanı idarəetməsinin qarşısını kimsə ala bilməz”.



**H.Hacızadə partiyaya hansı şərtlər daxilində qayıda biləcəyini də açıqladı:** “Şəxsən mənim Müsavatdan getməyim partiyada söz azadlığının boğulması ilə bağlı idi. İlk növbədə, partiyada düzəlməli olan məsələlərdən biri də budur. Əgər bu düzəlsə, o zaman qayıdıb-qayıtmayacağımı müzakirə edə bilərik. Partiyadan gedənlərlə ayrıca söhbət etmək lazımdır. Hazırda hərə öz fəaliyyətindədir. Hamını birləşdirmək üçün böyük işin görülməsinə ehtiyac var. Elə bir iş görmək lazımdır ki, qurultaydan da böyük olsun”.

**5 il öncəki qurultayda Müsavat başqanlığına namizəd olan AĞ Partiya başqanı Tural Abbaslı bunları dedi:** “Əvvəla onu qeyd edim ki, digər partiya və qurumların işinə müdaxilə etmək, onlara şərh verməyin tərəfdarı deyiləm. Hər bir təşkilat və ya partiya istədiyini etməkdə, istədiyini özünə rəhbər seçməkdə sərbəstdir. Bu gedişlərin doğru olub-olmadığına qiymət verəcək yeganə qüvvə xalqdır. Ancaq siyasi fəaliyyətimin böyük hissəsini bu partiyada keçirmiş biri kimi bu mövzuda qısa fikir bildirməyimin mənəvi haqqım olduğunu düşünürəm. Öncə əsl müsavatçılara növbəti qurultayda uğurlar arzulayıram. Hesab edirəm ki, son qurultaydan bu yana partiya rəhbərliyi o qədər yanlış və ziyanlı siyasət yürüdüb ki, bunun nəticələri bir qurultayla aradan qalxmaz. İstər hazırkı sədr qalsın, istərsə də İsa Qəmbər sədrliyə qayıtsın, Müsavatı əvvəlki kimi güclü edə bilməzlər. Təbii ki, bunun obyektiv və subyektiv səbəbləri kifayət qədərdir. Buraya ölkədəki ağır siyasi durumu, iqtidarın partiyalara münasibətindən tutmuş, partiya rəhbərliyinin səriştəsiz idarəçiliyinə qədər hər şeyi daxil etmək mümkündür. Ancaq düşünürəm ki, əsas problemlərdən biri və hətta birincisi partiyada qan dəyişikliyinin olmamasıdır. Partiya artıq çox yaşlanıb və onları əvəzləyəcək səriştəli və bacarıqlı gənclik isə orada ya yoxdur, ya da olduqca azdır. Bütün bu sadaladığım və sadalamaq istəmədiyim bir çox nüansları nəzərə alaraq təəssüflə deməliyəm ki, Müsavatı ağır günlər gözləyir. Belə bir köklü partiyanı bu hala salanlar, məncə, bir də düşünüb, nədə səhv etdiklərini dərk etsələr daha yaxşı olar”.

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019

# Meriyanın mitinqlə bağlı 16-cı qərarı nə olacaq?

## Qulamhüseyn Əlibəyli: "Mümkündür ki, hakimiyyət mitinqlərdə təxribat ola biləcəyindən ehtiyatlandığı üçün belə edir"

**Azərbaycanda mitinq qadağaları davam edir. Bu ilin yanvarından başlayaraq, ən müxtəlif müxalif qurumlar tərəfindən 15 mitinq müraciəti edilib və bunların hər birinə Bakı Şəhər İcra Hakimiyyəti mənfi cavab verib. Sonuncu icazəli aksiya bu il yanvarın 19-da Milli Şura tərəfindən keçirilib.**



Azərbaycan Xalq Hərəkatı 2019-cu il yanvarın 26-da keçmiş daxili işlər naziri İsgəndər Həmidovun təşəbbüsü ilə təsis edilib. Qurum 25 may mitinqini Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda (metronun "İnşaatçılar" stansiyasının yaxınlığı) keçirmək istəyirdi.

Novator.az bildirir ki, 2019-cu ildə Bakı Şəhər İcra Hakimiyyəti yalnız bir aksiyanı sanksiyalaşdırıb. Yanvarın 19-da Demokratik Qüvvələrin Milli Şurası Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda mitinq keçirib.

Paytaxt hakimiyyəti Milli Şuranın yanvarın 26-da, fevralın 23-də, martın 2-də, aprelin 6-da, aprelin 20-də, mayın 5-də və mayın 11-də eyni stadionda keçirmək istədiyi mitinqlərə (üst-üstə 7 mitinqə) icazə verməyib.

Bir qrup ictimai-siyasi xadimin ötən il yaratdığı Qarabağ Komitəsi 2019-cu ildə Yasamaldakı İdman-Sağlamlıq Kompleksinin stadionunda keçirmək istədiyi 3 mitinqə (fevralın 16-sı, martın 16-sı, mayın 4-ü) rədd cavabı alıb.

Müsavat Partiyası 2019-cu ildə Bakı Şəhər İcra Hakimiyyətinə müraciətlərində yürüş-mitinqlərə ("20 Yanvar" metro stansiyasından Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionuna yürüş və orada mitinq; Süleyman Sani Axundov küçəsindən "Dərnəgül" metro stansiyası yaxınlığındakı meydana yürüş, orada mitinq) icazə verilməsini istəyib. Paytaxt hakimiyyəti yanvarın 12-nə və martın 10-na təyin olunmuş yürüş-mitinqləri məqsədəuyğun saymayıb.

Müsavat Bakı Şəhər İcra Hakimiyyətindən 7 aprel aksiyası üçün müraciətə də mənfi cavab alıb. Partiya kütləvi aksiyaya paytaxtdakı 3 meydandan birinin (Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionu; "Dərnəgül" metro stansiyası yanındakı meydan; Tofiq Bəhramov stadionu qarşısındakı meydan) ayrılmasını istəmişdi.

Bakı Şəhər İcra Hakimiyyəti Qarabağ Azadlıq Təşkilatının mayın 18-i Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda keçirmək istədiyi mitinqə razılıq verməyib.

Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Xalq Hərəkatının da mayın 25-nə təyin etdiyi mitinqə razılıq verməyib.

Bu halın nə vaxta qədər davam edəcəyi yönündə fərqli mövqelər səslənir. Mövcud vəziyyətin payıza qədər davam edəcəyi yönündə ehtimallar var. Səbəb kimi də hakimiyyətin qışa qədər parlament seçkilərinə gedəcəyi, yaxud da Avropa İttifaqı ilə məlum əməkdaşlıq sazişini imzalayacağı göstərilir. Ölkədəki sabitliyin pozulmaması, təhlükəsizliyin qorunması üçün hökumətin indiki şəraitdə aksiyaları məqsədəuyğun saymadığını düşünənlər də az deyil.

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli fərqli düşünür:** "Mitinqlərə icazə verilməməsi Azərbaycan hakimiyyətinin qeyri-demokratik ənənələrini davam etdirməsinin nəticələrindən biridir. Mitinqlər azsaylı və ya çoxsaylı insanın iştirak etməsindən asılı olmayaraq, əhalinin müəyyən qrupunun öz fikirlərini ifadəetmə formasıdır. Aksiyalara icazə verilməməsinin səbəblərinə gəlincə, bunun izahını hakimiyyətdə olanlar daha yaxşı verə bilərlər. Amma hesab edirəm ki, 19 yanvar mitinqinin nəticələri iqtidar üçün ola bilsin, gözlənilməz olub. Bunun da nəticəsində iqtidar sonrakı mərhələlərdə bu gözlənilməzliyi nəzərə almağa başladı. Bundan



əlavə, o da mümkündür ki, hakimiyyət mitinqlərdə təxribat ola biləcəyindən ehtiyatlandığı üçün belə edir. Müxalifətin təxribat törədəcəyini deyil, Azərbaycanı istəməyən qüvvələr tərəfindən bunun edilə biləcəyini düşünür. Yaxud iqtidar öz daxilindən kimlərinsə bunu hazırlaya biləcəyindən ehtiyat edə bilər. Amma istənilən halda 19 yanvar mitinqində yeni iştirakçıların sayının çox olmasının mitinq qadağalarına səbəb olduğunu düşünürəm".

**Q.Əlibəyli Avropa İttifaqı ilə saziş ətrafında gedən danışıqlar səbəbi ilə mitinqlərə icazə verilmədiyi barədə deyilənlərlə razı deyil:** "Bu əlaqələndirmə doğru deyil. Çünki saziş ətrafında gedən danışıqlarda demokratiya və insan haqları məsələsi də müzakirələr sırasındadır. Təkcə iqtisadi məsələ müzakirə olunmur. Azərbaycan tərəfi o sazişdə müəyyən məsələləri əks etdirmək istəyir. Buna görə də mitinqlərə icazə verilməsi insan hüquqlarına hörmətin ifadəsi ola bilərdi. Bu hal davam edərsə, sadəcə, problemlər çoxala bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Deputatların statusuna dair qanuna dəyişiklik edilib

**"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanuna dəyişiklik təklif edilib.**




Musavat.com-un məlumatına görə, təklif edilən dəyişikliyə əsasən, qanunun 16-cı maddəsinin (Deputatın vəzifələri) ikinci cümləsi aşağıdakı kimi yeni redaksiyada verilir: "Deputat Azərbaycan Respublikası Milli Məclisinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə, habelə Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində nəzərdə tutulmuş digər hallarda həmin Nizamnamə ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur".

**Sənədin hazırkı variantı isə belədir:** "Deputat Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında və üzvü olduğu Azərbaycan Respublikası Milli Məclisinin komitə və komissiyalarının iclaslarında iştirak etməlidir. Üzrsüz səbəbdən Azərbaycan Respublikası Milli Məclisinin və onun komitə və komissiyalarının iclaslarını buraxan deputat Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur".

Qanun layihəsinə dəyişiklik müzakirələrdən sonra səsverməyə qoyularaq, 1-ci oxunuşda qəbul edilib.

# Milyardların sevimli oyunu, milyardların dövr etdiyi futbol



**Xalid KAZIMLI**

**Futbol, əlbəttə ki, bir oyundur. Sevimlidir, populyardır, bir neçə milyard insanın maraqlandığı bir şeydir, amma oyundur, yarışmadır.**

Futbol eyni zamanda böyük qumar predmetidir. Futbol oyunlarının nəticələrinə dair qumar oynadan bikmeker kontorlarında hər gün milyardlarla dollar dövr edir.

Dünyanın iqtisadiyyatına görə ən inkişaf etmiş ölkələrində futbol təsərrüfatı daha yaxşı inkişaf etmiş durumdadır. Bu ölkələrdə futbol azarkeşlərinin kütləsi də daha ağırçəkilidir.

Hamının ağıllı saydığı millətlər (məsələn, ingilislər, yəhudilər, almanlar, italyanlar) daha çox futbol fanatikidir.

Keçmişdə dünya, region hegemonluğuna can atmış, dünyanın dörd bir yanında müstəmləkələr saxlamış ölkələr (Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Hollandiya, İspaniya, Portuqaliya, Türkiyə) futbolda da güclüdürlər.

Bir sözlə, futbol onlarla idman növlərindən biri, birincisi olsa da, heç də boş şey deyil.

Futbol azarkeşlərinin çox və çılğın olan ölkədə vətənpərvərlik problemi olmaz. Belə ölkələr xarici aqressorun hücumuna məruz qaldığı ilk saatlarda hərbi səfərbərlik məsələsi anındaca və spontan şəkildə həll olunar.

Futbol bir ölkənin ictimaiyyətini tezliklə bir araya toplaya, bir məqsəd ətrafında birləşdirə bilən vasitədir. Çılğın futbol azarkeşləri heç zaman "beşinci kolon" əsgərlərinə çevrilməzlər.

Ona görə də heç kəs futbol azarkeşlərinin çoxalmasından, azarkeşlik hərəkatının kütləviləşməsindən qorxmasın. Ziyanlı deyil, faydalıdır - xüsusilə də bizim durumda olan ölkələr üçün.

Futbol fanatikliyi isə başqadır. Bu dəlilikdir. Hansısa bir klubun tərəfdarı olaraq başqa bir kluba nifrət bəsləmək, o klubun tərəfdarları ilə söyüşəcək, savaşacaq, hətta bıçaqlaşacaq qədər azarkeş olmaq psixi xəstəliyə tən haldır.

Şükür ki, bizim ölkəmizdə o cür çılğın, xəstə, xuliqan futbol azarkeşləri yoxdur.

Onların əvəzində elə adamlar da var ki, nəinki futbolla maraqlanmır, azarkeşlik etmirlər, üstəlik, azarkeşləri ələ salmağa çalışırlar. Sanki bunlar daha vacib işlərlə məşğuldurlar və daha ciddi hobbiləri var, məsələn, ikebana kolleksiyası toplayırlar, opera-balet həvəskarlarıdır, klassik musiqi dinləyirlər, şeir-sənət xiridardırlar və s.

Axtarsan, məlum olur ki, onlar nəinki futbolla, ümumiyyətlə, heç nəylə maraqlanmırlar, eləcə, işə gedir-gəlir, yemək yeyir, yatır, durur, yenidən işə gedir, pul qazanır, pul xərcləyirlər, vəssalam. Əlbəttə, bu da onların yaşam tərzidir, necə deyərlər, özləri bilər.

Fəqət bu cür "heç nəylə maraqlanmayan" adamların bir çoxu bəzən ölkədə təşkil olunan idman yarışlarına ağız büzür, bəyənmir, ələ salır.

Başqa vaxt elə həmvətənlərin bir xeylisi Avropaya inteqrasiya olunmaqdan, Avropa xalqları ilə qaynayıb-qarışmaqdan danışırlar.

Əgər biz Avropanın idman yarışlarına, mədəni tədbirlərinə qatılmayacağıqsa, kütləvi şəkildə qonaq gedib, kütləvi şəkildə qonaq qəbul etməyəcəyiksə, bu inteqrasiya, qaynayıb-qarışma prosesi necə gedəcək?

Futbol matçlarına (eləcə də digər idman yarışlarına) bu prizmadan, ələ düşən fürsət kimi yanaşmaq lazımdır.

Əslində futbolun çox kütləvi reklam, təbliğat səciyyəsi də var. Bir neçə il öncəyə qədər ölkəmizin (eləcə də dünyanın) yetkin əhalisinin doxsan faizi planetdə Kosta-Rika və İslandiya adlı ölkələrin olduğundan bixəbər idi. Bu ölkələrin futbol komandalarının mundialda oynaması kifayət etdi ki, milyonlarla insan belə ölkələrin mövcudluğundan xəbər tutsun və onların içindəki on minlərlə səyahət həvəskarı bu ölkələrə getmək istəsin.

Möhtəşəm idman yarışlarının qalibi olan ölkələrin turizm sektorunda sıçrayış olur - bu, birmənalıdır və dəfələrlə sübut olunub.

Adi baxanda, səthi yanaşanda, deyirsən, nə var axı burada, bir otluqda, 100 metr aralıqda iki dirəyi basdırıb üstünə tir atıblar, böyür-başına tor çəkiblər, ortaya bir yuvarlaq meşin tullayıblar və 22 kişi o yuvarlaq şeyi o yana-bu yana qovur.

Amma dərindən yanaşanda görürsən ki, yox, futbol qələbələri ölkənin ad-sanı, şan-şöhrətidir, güclü futbol təsərrüfatı güclü iqtisadiyyatdır, kütləvi azarkeş ordusu hər dəqiqə silaha sarıla biləcək könüllülər kontingentidir və s.

Bəli, futbol adi idman oyunudur, amma boş şey deyil...



# Ən yaxşısı öz oyunlarımızdır

Zamin HACI
zaminhaci@gmail.com

“İndi bizə bir çarə ki, yağış kəssin, dünən gedib çay qırağındakı cindar Hacı İsmayıldan xəbər aldım yağışı nə cür kəsmək olar? O büzürgüvar buyurdu: qırx keçəlin adını yazıb ağacdan asarsan, yağış kəsər”

*(“Molla Nəsrəddin” jurnalı, 4 avqust, 1906-cı il)*

**Bəli, bütün dünyaya sübut elədik ki, çox gözəl formada futbol yarışı da keçirərik, ən dalaşqan azarkeşləri olan ölkədən camaat gələr, birinin burnu qanamadan gedər. Bu nə şeydir, bizim vaxtilə fiqurlu konkisürənlərimiz, xizəkçilərimiz də var idi, olimpiadalarda iştirak edirdilər. Düzdür, axırıncı dəfə nəsə bir yarışda heç finişə gəlib çatmadılar, ancaq dərd eləmirik. Lazım gəlsə taparıq, istədiyimiz qədər sürüşərlər. Elə final oyununda qalib komandanın 4 topundan 2-nin müəllifinin Eden Azər adlı oyunçu olması əsl mistika deyildimi? Tanrı işarə verir ki, azərilər deyirlər, edirlər. Bizdə boş söhbət olmaz. Sözgəlişi, hələ final orucluğa düşdü, bir az ona görə başımız ibadətə qarışmışdı. AMEA Fizika İnstitutunun fətvası var, deyir Ramazan ayında futbol oynamaq məkruhdur. Yəni günah deyil, ancaq eləməsən məsləhətdir. İnşallah, növbəti illərdə futbol üzrə dünya çempionatının oyunları başqa aylara düşər, biz bacarığımızı tam şəkildə göstərərik. Yanlış anlaşılmasın, indi də yaxşı oldu, sadəcə, deyirəm lap əla olar. Bizi istəməyənlər ölsün.**

Milli Məclisdən də xoş soraq var, deyir orada təzə qanun düzəldilib, indən belə iclasa gəlməyən deputatlar cəzalana bilər. Maraqlı yanaşmadır. Deputatın iclasa gəlməsi niyə vacibdir ki? Bəlkə o, daim xalqın arasında, seçicilərinin problemləri ilə döyüşlərdədir? Bunu zorla gətirib iclasda oturtmaqdan biz nə qazanacağıq? Məncə, çox düzgün olardı qanuna təzədən baxılsın, orada yazılsın ki, deputat iclaslara heç gəlməsin. Yoxsa elə deputat var beş il bütün iclaslara gəlir, lakin bir dəfə danışıb camaata tema vermir. Ancaq deputat da var Milli Məclisin qapısını tanımır, adı bütün millətin dilində əzbərdir.

Bayaq dini söhbətimiz yarımçıq qaldı, istəyirəm bir az onu xırdalayım. Diqqətli oxucuların yadında olar, mən köhnə yazılarımdan birində Avropanın, Qərbin oyunlarına - hər mənada - aludə olmağımızın ziyanlarından yazmışdım. Özünüz baxın, Bakıda indiyə qədər min dənə oyun olub, lakin bunlarda həmişə axmaq söz-söhbət, böhtançı yazılar, xaricdən maliyyələşən qara qüvvələrin dəyirmanına su tökən... Uzun sözün qısası, problem çıxaran turnirlər ancaq Avropaya, Qərbə aid olanlardır. Ən rahat turnirimiz İslam Oyunları olub. Bir dənə olsun tənqidi məqalə yazılmayıb, xaricdən üstümüzə bir it balası da mırıldanmayıb. Nəyə görə? Çünki biz müsəlman dövlətiyik! Şərqdə ilk cümhuriyyəti biz qurmuşuq, qadınlara səsvermə hüququ vermişik, ona görə indi qadınları UZİ-də aşkar edib öldürürük. Mövzu başqadır, əlbəttə, qanımızı qaraltmayaq. Sözümün canı odur ki, gərək hər millət öz tay-tuşları, öz mühitində otursun, oynasın. Sovet vaxtı bu temada yaxşı bir lətifə var idi, deyir tələbə gəlir imtahan verməyə, müəllim soruşur: “Marks kim olub?” Tələbə deyir bilmirəm. Soruşur: “Engelsi tanıyırsan?” Yenə cavab mənfi olur. Müəllim deyir sənə “2" yazıram. Tələbə etiraz edir: ”Müəllim, sən Ağabala ilə Gülbalanı tanıyırsan?" Müəllim deyir: “Yox”. Tələbə: “Gördün? Hərənin öz kruqu var da bə!”

Keçən dəfə qəzetdə bu temada yaxşı bir qafiyə açmışdılar. Deyir Avropanın çox yerində homoseksual, gey adamlar şəhər rəhbərliyinə, nazir vəzifəsinə-zada gətirilir, bəs biz buna hazırıqmı? Müəllif tam haqlı olaraq axırda qənaətə gəlmişdi ki, yox, hazır deyilik. Doğrudan da, şəhərin başçısı, nazirliyin müdiri kişi adam olmalıdır. Biri var sən rüşvəti kişi adama verəsən, biri də var, türkün məsəli, hansısa gey qışqırda-qışqırda sənin pulunu alsın. Böyük fərqi var. Adamın reputasiyasına, gələcəyinə də mənfi təsir edir. Misal üçün, tutalım sən getdin homoseksual merə rüşvət verib bir neçə sot yer aldın, orada göydələn qayırdın. Kim ordan mənzil alacaq? Almazlar. Bizim millət belə şeylərdə tükü-tükdən seçir. Apple firmasının şefi Tim Kuk açıq gey olduğundan “Ayfon” telefonunu yandıran soydaşımız var.

Hər iki halda misalı rüşvətlə bağlı çəkdim, ancaq başqa nə misal çəkməyimi gözləyirdiniz? Adam dövlət qulluğuna başqa nəyə görə gedir ki? Xalqa xidmət üçün? Gülməli fikirləriniz var. Belə fikirləriniz olanda yazın göndərin, birlikdə gülək.




# İnformasiya müharibəsinin hədəfindəki Azərbaycan...

## Bu savaşda uduzmamaq üçün nə etməliyik?

**İnformasiya texnologiyalarının inkişafı dövlətlərarası münasibətlərə təsir edib. Artıq dövlətlər savaşmaq yerinə informasiya müharibəsinə əl atırlar. Azərbaycan da tez-tez düşmən ölkə və onun tərəfdarlarının informasiya hücumları ilə üzləşir. Sonuncu belə hadisə mayın 29-da Avropa Liqasının final qarşılaşmasının - “Çelsi”-"Arsenal" oyununun Bakıda keçirilməsi ərəfəsi də yaşandı.**

Bəs informasiya müharibəsində Azərbaycan necə savaşmalıdır? İnformasiya dünyasında düşmən tərəfə necə cavab verilməli, ölkəmizin mövqeləri necə dünyaya çatdırılmalıdır?

**“Yeni Müsavat”a açıqlamasında bu sualları cavablandıran politoloq Elxan Şahinoğlu vurğuladı ki, bu işlə dövlət strukturları məşğul olmalıdır:** “Xarici İşlər Nazirliyi, Prezident Administrasiyasının müvafiq şöbələri, Diaspora Komitəsi və yeni yaranan iki mərkəz - Beynəlxalq Təhlil Mərkəzi və Sosial Araşdırma Mərkəzi, yəni 5 struktur bu işlə məşğul olmalıdır. Və ya ortaq bir komissiya yaradılmalıdır, müstəqil ekspertlər cəlb edilməlidir. Biz öz səviyyəmizdə ekspertlər, politoloqlar olaraq, nə isə etməyə çalışırıq. Ancaq bu dövlət səviyyəsində görüləcək bir işdir. Çünki Azərbaycan müharibə şəraitindədir. Müxtəlif ölkələrdən informasiya hücumları ilə üzləşirik. Son hadisələr də bunun bariz nümunəsidir. Bu sistemli bir iş olmalıdır. Mən belə sistemli bir işin aparıldığını görmürəm. Hansısa dövlət qurumu nə isə edir, ancaq əlaqəsiz iş görülür. İnformasiya savaşında Azərbaycan üçün təhlükə böyükdür. Mayın 29-da ”Arsenal" komandasının erməni əsilli futbolçusu Henrix Mxitaryanın formasını geyinən iki azarkeşin polis tərəfindən yolda saxlanıb, məsələ aydınlaşdırıldıqdan sonra buraxılması, yəni 20 saniyəlik bir kadr iki gündür dünyanın ən məşhur kanallarında və Youtube-da yayımlanır. Bundan Azərbaycana qarşı istifadə edirlər".

**Politoloqun sözlərinə görə, belə məsələlər araşdırılmalı, “biz nə etməliyik” sualına cavab tapılmalıdır:** “Əgər məni bir müstəqil ekspert kimi dəvət etsələr, mən də əlimi daşın altına qoymağa hazıram. Dövlət bu işi nəzarətə götürməlidir. Ermənistan hökuməti bu işi erməni lobbisi ilə birgə görür. Ermənistan hakimiyyəti, Qarabağ separatçıları, erməni lobbisi və Qərbdə onlara dəstək verən mərkəzlər - yeni 4 struktur birləşib. Azərbaycana qarşı nə qədər iyrənc yazıların dərc edildiyini hamınız gördünüz. Doğrudan, oyun və təşkilatçılıq yüksək səviyyədə oldu. Ancaq bu cür hücumları da neytrallaşdırmaq üçün iş aparılmalıdır. Özümüz hücuma keçməliyik. Çünki informasiya savaşı Qarabağ savaşının əsas tərkib hissələrindən biridir”.

**E,Şahinoğlunun sözlərinə görə, hücum olmasa belə, bizim də müəyyən taktikalarımız olmalıdır:** “Araşdırmalıyıq ki, qarşı tərəfin necə zəiflədək, necə daha böyük zərbə vuraq. İnformasiya savaşı ilə göstərməliyik ki, bu hadisələrdə əsl günahkar kimdir. İşğal olunmuş torpaqlarımızdan şəkillər yayımlanır ki, ermənilər yenə də Kəlbəcərdə emal zavodu açıblar. Bu artıq iş tələb edir. Biz dünyaya göstərməliyik ki, Azərbaycan bütün planlara görə işğaldan azad olunmalıdır, niyə orada belə bir zavod tikirlər, niyə köçürmə əməliyyatı həyata keçirilmir. Bunu dünyada tanıtdırmaq lazımdır. Bu, sistemli iş tələb edir. Bu işi görmək üçün müxtəlif dövlət komitələri çalışmalıdır, müstəqil ekspertlər cəlb olunmalıdır. Onların da müəyyən təklifləri ola bilər. Onlar ayda 1-2 dəfə yığışıb müzakirələr etməlidirlər. Ali bir struktur da olmalıdır. Bütün dövlətlərdə informasiya savaşı aparan mərkəzlər var. Təhlükə ilə üzləşən, informasiya hücumlarına məruz qalan dövlətlər bunu neytrallaşdırmaq və həqiqəti anlatmaq üçün informasiya texnologiyalarının imkanlarından istifadə edirlər. Böyük Britaniyada ”The İndependent" qəzeti Azərbaycan haqqında çox iyrənc bir yazı yazdı, onu dünyada oxudular. Biz ona necə cavab verməliyik? Təkcə səfirin təkzib göndərməsi ilə iş bitmir. Başqa işlər də olmalı idi, cavab yazıları yayımlanmalı idi, dünyanın məşhur köşə yazarlarını Bakıya dəvət edib burada yazı hazırlamaqla bilgiləndirmək olardı. Dünya ölkələrindəki səfirliklərimiz jurnalistlərlə, köşə yazarları ilə sıx əlaqələr saxlamalı idilər. Bütün bunlar araşdırılmalı, öyrənilməlidir".

Qeyd edək ki, ilk dəfə “informasiya müharibəsi” terminini 1976-cı ildə amerikalı mütəxəssis Tomas Rona “Boeing” kompaniyası üçün hazırladığı “Silah sistemləri və informasiya müharibəsi” adlandırdığı hesabatında istifadə edib. Rona hesabatında sübut etmişdi ki, son illərdə informasiya infrastrukturu ABŞ iqtisadiyyatının əsas komponentinə çevrilib. “İnformasiya müharibəsi” termini rəsmi olaraq ilk dəfə ABŞ Müdafiə Nazirliyi tərəfindən 1992-ci ildə istifadə edilib. ABŞ-ın Müdafiə Nazirliyinin informasiya müharibəsi haqqında sənədlərində bildirilir ki, informasiya həm silah, həm də məqsəddir: **“İnformasiya hücumu isə icazə olmadan istənilən formada informasiyanın köçürülməsi, dəyişdirilməsi və məhvinə, habelə proqram təminatlarına, məxfi informasiyanın saxlandığı texniki qurğulara və insan psixologiyasına yönəlmiş əməliyyatdır”.**

ABŞ-da informasiya müharibəsini təsvir etmək üçün çox zaman onu informasiya əməliyyatı ilə müqayisə edirlər. İnformasiya əməliyyatı - məqsədə çatmaq üçün qarşı tərəfin informasiya fəzasına təsir etmək və bu zaman öz informasiya resurslarını qorumaq məqsədilə xüsusi metodlardan və siyasi, iqtisadi, texniki, hərbi vasitələrdən istifadə etməklə həyata keçirilən mübarizə formasıdır. Rusiyanın mütəxəssisləri bu mübarizə formasını informasiya qarşıdurması kimi təsvir edirlər. Amerika tədqiqatçılarının fikrinə görə, informasiya əməliyyatı vasitələrilə realizə olunan informasiya qarşıdurması hərbi qüvvələrin, elmi mərkəzlərin, müxtəlif siyasi təşkilatların hazırlığında və fəaliyyətində informasiya müharibəsi texnologiyalarından geniş istifadəni nəzərdə tutur. İnformasiya qarşıdurmasında əsas məqsəd qarşı tərəfin informasiya da daxil olmaqla, bütün növ resurslarına təsir göstərməkdir. Digər tərəfdən, informasiya qarşıdurmasında demoqrafiya, təbliğat, “beyinlərin yuyulması”, ictimai rəyin və şüurun manipulyasiyası və sair üsullardan geniş istifadə edilir.

Qeyd etmək lazımdır ki, informasiya müharibəsi prosesində kompüter şəbəkəsinə daxil olmaqla, həmçinin internet vasitəsilə qarşı tərəfin həyati əhəmiyyət kəsb edən maliyyə, bank sistemi, rabitə, elektrik təchizatı və nəqliyyat vasitələrini iflic etmək mümkündür. Bu məqsədlə internetdə veb-briqadalar və hakerlər fasiləsiz işləyirlər.

**❑ Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019



# Bakı iki ingilisin savaşından üzüağ çıxdı

## Azərbaycan "Çelsi"-"Arsenal" finalına gələn 20 minə yaxın turisti yüksək səviyyədə qarşıladı, nə təxribat, nə insident oldu; **deputatlar Mxitaryan şousunun iflasından danışdılar:** "İlham Əliyevin komandası peşəkarlıq göstərdi..."

**UEFA Avropa Liqasının Bakı finalı bitdi. Həminin maraqla, həyəcanla gözlədiyi, 204 ölkədə canlı yayımlanan iki London klubunun qarşılaşmasında "Çelsi" 4:1 "Arsenal"ı məğlub edərək, kuboku başı üzərinə qaldırdı.**

Hər şey sakit, yüksək təşkilatçılıq çərçivəsində keçdi. İngilis fanatlar pivələrini də içdilər, hayqırdılar da, sərbəst şəkildə şəhəri gəzdilər də.

Əvvəldən yayılan dezinformasiyalar, nüfuzlu, özünə hörmət qoyan İngiltərə mətbuatının yazdığı məlumatlar təsdiqlənmədi. Bakıda nə təxribat, nə insident oldu, nə hansısa turistə qarşı kobudluq edildi.

**Mxitaryan həşiri, UEFA prezidentinin şillə kimi cavabı...**

"Yeni Müsavat" yada salır ki, final ərəfəsində başlanmış həşir təəccüb doğurmaya bilməzdi. Britaniyada qərəzli media nələr yazmırdı - "Arsenal"ın erməni əsilli oyunçusu Henrik Mxitaryana Bakıda təhlükə var, hotellər bahadır, təyyarələrimiz London havasını zəhərləyir, yol uzaqdır, ölkəmizdə 100 erməni belə yaşamır, Sumqayıtda və paytaxtda ermənilər qəddarlıqla qətlə yetirilib və s. və ilaxır...

Azərbaycanın Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi dönə-dönə bəyan eldi ki, Mxitaryanın Bakıda gəlib oynamasına problem yoxdur, təhlükəsizliyə tam zəmanət verilir.

Buna qədər Azərbaycanda keçirilən idman və musiqi yarışmalarında onlarla erməni iştirak edib, heç bir problem də olmayıb. Mxitaryan da fürsətcillik elədi bu hadisədə. Olmayan problem ətrafında şou yaratdı.

Üstəlik, özünü transfer bazarına çıxarıb, şələ-şüləsini qoltuğuna vurub, "Arsenal"dan yola saldıqları ərəfədə dünyanın diqqətini finala yox, özünün Bakıya getməməsinə cəlb elədi.

**UEFA prezidenti Aleksandr Çeferin də mətbuat konfransında bildirmişdi ki, erməni mətbuatının yazdığı onu maraqlandırmır:** "Azərbaycan dövləti bütün təminatları verdi. Bura gəlməmək Mxitaryanın şəxsi qərarı idi. Heç bir problem görünmürdü".

Yeni gənclər və idman naziri Azad Rəhimov demişkən, daha nə deyilməliydi, hansı təminat verilməliydi ki, erməni futbolçu burada oynasın.

**2020 matçlarına doğru bir nümunə...**

Bundan başqa, ingilis qəzetləri Azərbaycanı təhlükəli ölkə kimi qələmə verməyə başladılar. Ancaq bp kimi nəhəng neft şirkətinin 1994-cü ildən Bakıda rahat neft çıxardığını söyləmədilər.

Nəhayət, Britaniyanın Bakıdakı səfiri bütün bu kampaniyaya münasibət bildirdi, diplomatik dillə hər şeyin qaydasında olduğunu vurğuladı.

Elə də oldu. Avropa Liqasının Bakıda final oyununun uğurla keçirilməsi bir daha Azərbaycanın böyük beynəlxalq tədbirləri, o cümlədən bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını nümayiş etdirdi.

Bir daha sübut olundu ki, Azərbaycan belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura malik ölkədir.

Hər hansı bir problemin, ciddi insidentin olmaması tədbirin yüksək səviyyədə təşkil olunduğunu aydın nümayiş etdirdi.

Hazırlığın yüksək səviyyəsi xaricdəki anti-Azərbaycan qüvvələrin iddialarını alt-üst etdi, qara piar kampaniyası effekt vermədi.

Azərbaycan təsdiq etdi ki, 2020-ci ildə Avropa çempionatının 4 oyununu da yüksək səviyyədə təşkil etmək və uğurla keçirmək gücünə, bacarığına malikdir.

**Deputat: "Milli mənliyini itirənlər erməninin yanında oldular"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvü, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a Bakı finalının son dərəcə maraqlı alındığını qeyd etdi.**

**Deputatın fikrincə, "Çelsi" "Arsenal"a dərs verdi:** "Mən bir "Çelsi" azarkeşi olaraq bu qələbəyə sevindim və Sankt-Peterburqda televiziyadan oyunu izlədim. Bu finalda Azərbaycan tamaşaçıları da yüksək mədəniyyətini, elitarlığını nümayiş etdirdilər".

**F.Ağamalının sözlərinə görə, final oyununun təşkilatçılığı və təhlükəsizlik tədbirləri ən peşəkar səviyyədə idi:** "Mən xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın final oyunu ilə təşkilatçılıq işlərində yüksək istedadı böyük rol oynadı. Nəhayət, kifayət qədər fərqli yanaşmalar olan bir oyun başa çatdı. Əsas məqam ondan ibarətdir ki, Bakı dünya toplantılarının, beynəlxalq yarışların, konfransların keçirildiyi təhlükəsiz bir məkana çevrilib.

Buna qədər biz İslam Həmrəyliyi Oyunları, Avropa Oyunları, Avroviziya mahnı yarışması, müxtəlif forumlar, sivilizasiyalararası dialoqlar keçirmişik. Biz bir Azərbaycan brendini, imicini ortaya qoymuşuq".

**Deputat bildirdi ki, belə bir infrastruktur yaratmış, müxtəlif tədbirlərə ev sahibliyi etmiş, təhlükəsizliyi peşəkar səviyyədə təşkil eləmiş ölkə futbol finalında problem yaşamamalı idi:** "Belə də oldu, Azərbaycanda hər hansı xoşagəlməz hadisə yaşanmadı. Sadəcə, anti-Azərbaycan qüvvələr, şəxsiyyətini, milli mənliyini itirənlər erməninin yanında oldular. Onlar müxtəlif bəhanələrlə üstümüzə gəldilər".

**F.Ağamalı qeyd etdi ki, prezidentin komandasının təşkilatçılıq işlərində xüsusi rolu oldu:** "AFFA prezidenti Rövnəq müəllimə, gənclər və idman naziri Azad Rəhimova, bu işdə əməyi olan hər kəsə təşəkkür düşür. Mən prezident İlham Əliyevi təbrik edirəm. Bizi istəməyən qüvvələri peşman edə bildik. Azərbaycanı istəyənlər sevindi, istəməyənlərin başı yerə əyildi. O başların əyilməsi dövlətimizin qarşısında əyilməkdir".

**Müsahibimizin fikrincə, final ərəfəsində qara piar kampaniyası aparanların məqsədi ölkəni gözdən salmaq idi:** "Onlar Azərbaycanı dünyada nüfuzdan salmaq, başqa rəng, görkəm vermək istədilər. Çünki bizim söz sahibi olaraq fəaliyyətimiz genişləndikcə gözü götürməyən qüvvələr gözdən salmağa çalışırlar.

Burada xüsusi olaraq erməni diasporundan maliyyələşən lobbilərin fəaliyyətini qeyd edərdim. Həmçinin xristian təəssübkeşliyi göstərdilər. Onlara qoşulan xəyanətkar anti-milli qüvvələr də Azərbaycanı nüfuzdan salmaq istədilər. Ancaq yenə də onların planları alt-üst edildi və prezidentin komandası peşəkarlıq göstərdi".

**Spikerdən hüquq-mühafizə orqanlarına təşəkkür**

**"UEFA Avropa Liqasının final matçı Azərbaycanda yüksək səviyyədə keçdi". Bunu Milli Məclisin sədri Oqtay Əsədov deyib. Spiker bildirib ki, oyun zamanı bütün qaydalar, təhlükəsizlik və asayiş yüksək səviyyədə təmin olundu:** "Hamınızı təbrik və hüquq-mühafizə orqanlarına asayişi yüksək səviyyədə qoruduğu üçün təşəkkür edirəm".

**Aqil Abbas: "Şər-böhtan atanların cavabını verdik"**

**"Avropa Liqanın final oyununun ölkəmizdə keçirilməsi son illər Azərbaycanda gedən inkişafı bütün dünyaya göstərdi".**

**Bu sözləri deputat Aqil Abbas deyib. O bildirib ki, ölkəmiz belə mötəbər yarışlar keçirməyə tam hazırdır:** "Avroliqa final oyunu ərəfəsində ölkəmizdə təhlükəsizliyin aşağı səviyyədə olması barədə mənfi fikirlər yayırdılar. Bizə şər-böhtan atanların cavabını final oyununu möhtəşəm keçirməklə verdik. Ümumiyyətlə, Azərbaycan belə mötəbər yarışlara dəfələrlə ev sahibliyi edib və hər biri də belə uğurlu keçib".

**Jalə Əliyeva: "Sapı özümüzdən olan baltaların..."**

**"Biz Azərbaycana qarşı davamlı olaraq ikili standartlardan çıxış edən ölkələrin və onların dəyirmanına su tökən sapı özümüzdən olan baltaların informasiya təzyiqinə məruz qalırıq".**

**Bu sözləri isə Axar.az-a deputat Jalə Əliyeva bildirib. Onun fikrincə, bəzi qüvvələrə Azərbaycana qara yaxmağa öz içimizdə olan satqınlar kömək edir:** "Biz bu hallara öyrəşmişik. Azərbaycan hansısa irimiqyaslı, beynəlxalq bir layihəyə ev sahibliyi etməyə hazırlaşarkən yalan, böhtan dolu qara piar həyata keçirilməyə başlanılır.

Elə ölkəmizin ev sahibliyi etdiyi Avropa Liqasının final oyunu ilə bağlı da heç bir həqiqəti əks etdirməyən, xəstə təxəyyülün məhsulu olan informasiyalar yayıldı".

**Deputat Azərbaycana gələn turistlərin ölkəmizdən razı qaldıqlarını qeyd edib:** "Halbuki ölkəmizə gələn turistlər, azarkeşlər, bütün qonaqlar görürlər ki, bu məlumatların hamısı, sadəcə, təxribatdır. Hansısa təxribatdan, kiminsə həyatına qarşı sui-qəsddən və onların uydurduğu digər təzyiqlərdən söhbət belə gedə bilməz".

Deputat Naqif Həmzəyevin sözlərinə görə, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, bədii gimnastika üzrə Dünya Kuboku, Formula I Qran-pri yarışlarının ölkəmizdə keçirilməsi də Bakının təsadüfi seçim olmadığını deməyə əsas verir.

**Aynur Camalqızı: "Atılan daşlar havada qaldı"**

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı söyləyib ki, final oyunu ərəfəsində yaranmış ajiotaj zamanı daxildəki bəzi qüvvələrin ermənipərəst xarici qüvvələrə necə dəstək verməsinin şahidi olduq:** "Bu, utancvericidir. Hətta şəhidlərimizə, qəhrəmanlarımıza belə hücumlar oldu. Təbii ki, bu da ermənilərə dəstək kampaniyasının bir parçası idi. "Arsenal" - "Çelsi" oyunu ilə Azərbaycan bir daha yüksək təşkilatçılıq və qonaqpərvərlik nümunəsi göstərmiş oldu. Bununla Azərbaycanı hədəf seçmiş bütün qüvvələrə cavab verildi. Atılan daşlar havada qaldı. Azərbaycan demokratik inkişaf yolu seçmiş, plüralist cəmiyyət, tolerant, multikultural ölkə olduğunu bir daha nümayiş etdirdi".

**Natiq Cəfərli: "20 minə yaxın turist gəlib"**

**REAl Partiyasının icraçı katibi, iqtisadçı Natiq Cəfərli bildirib ki, finalın Azərbaycanda keçirilməsi həm ölkənin tanıtımı, həm də iqtisadi cəhətdən uğurudur:** "Çünki finalın keçirilməsi üçün büdcə xərcləmələrinə, əlavə məsrəflərə ehtiyac olmadı. Bir günlük tədbirlə bağlı Azərbaycanda 2-3 gün turist olur ki, bu da infrastrukturla bağlı əlavə narahatlıq yaratmır".

**İqtisadçı finala görə ölkəyə 20 minə yaxın turistin gəldiyini qeyd edib:** "Gürcüstan üzərindən qatar, avtomobil və avtobusla gələnlərin sayı bilinmir. Təyyarə ilə gələnlərin sayı 12 min olub. Ümumilikdə final yarışını izləmək üçün Bakını 20 minə yaxın turistin ziyarət etdiyi bildirilir. Hər bir turistin hotellərdə, restoranlarda, kafelərdə ortalama 500-600 dollar xərclədiyini nəzərə alsaq, iqtisadiyyat üçün kifayət qədər gəlirlidir. Bu baxımdan bu cür idman yarışlarının keçirilməsi, digər yarışlarla müqayisədə daha cəlbedici və gəlirli hesab edilir".

Xatırladaq ki, finalda məğlub olan "Arsenal" klubu kubokla bərabər növbəti mövsümdə Çempionlar Liqasında oynamaq hüququndan da məhrum oldu.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019



# Milli Məclisdə gərgin müzakirələr

## Qanun layihəsi deputatlarla spikeri üz-üzə qoydu; **Oqtay Əsədov:** "7 dəqiqə danışdınız, Azərbaycanda gedən işlər barədə bir müsbət söz söyləmədiniz"

**Mayın 30-da Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. İlk olaraq ombudsman haqqında" və "Normativ hüquqi aktlar haqqında" qanunlara dəyişiklik edilməsi barədə komitə sədri Əli Hüseynli məlumat verdi.**

**Deputat Qüdrət Həsənquliyev** söz alaraq layihədə müvəkkilin Milli Məclisə qanunvericiliklə bağlı təkliflər vermək hüququnun olduğunu vurğuladı və ombudsmanı tənqid etdi: "Hələ ombudsmanın təklifi əsasında Milli Məclisdə hansısa qanunun qəbul edildiyini mən xatırlamıram". Deputat ombudsman institutunun əhəmiyyətini artırmaq üçün qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsini zəruri saydı. Bildirdi ki, ombudsmanın təklifini öncə Ali Məhkəməyə təqdim etməsi, Ali Məhkəmə məqbul sayarsa, qanunvericilik təşəbbüsü ilə çıxış edərək Milli Məclisə layihə təqdim etməsi məqbul olardı: "Bununla bağlı qanunvericiliyə dəyişiklik edilsə, daha yaxşı olardı".

Spiker dedi ki, bu, ilk oxunuşdur, növbəti oxunuşlarda bu məsələyə baxıla bilər.

Konstitusiya qanunu layihəsi səsə qoyularaq 98 səslə qəbul edildi.

Daha sonra "Deputatın statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlara dəyişiklik müzakirəyə çıxarıldı.

**Deputat Fazil Mustafa söz alaraq qanun layihəsində deputatların iclaslarda iştirakına önəm verilməsi ilə bağlı müddəaya münasibətini bildirdi:** "Necə ki, son vaxtlar ali məktəblərdə tədrisin səviyyəsi aşağı düşdükcə, daha çox dərsə gəlib-gəlməmək məsələsi önə çəkilir və keyfiyyət kənarda saxlanılır. Təbii ki, intizamın gücləndirilməsi lazımdır. İclaslarda 3 dəfə üzrsüz səbəbdən iştirak etməməyin məsuliyyət yaratması anlaşılandır. Amma deputatın hüquqlarının gerçəkləşməsi, səlahiyyətlərinin artırılması istiqamətində də addımlar atılmalıdır. Məsələn, son vaxtların statistikası çıxarılmaldırı ki, deputatlar ayrı-ayrı qanunvericilik təşəbbüsü ilə çıxış edə biliblər? Qanunvericilik təşəbbüsü ilə çıxış etmək imkanları nə dərəcədə məhduddur? Bir çox hallarda normativ hüquqi aktlarla bağlı qəbul edəndə deputat üçün manеə yaradıldı ki, bu, mütləq ekspertiza rəyi olmaqla təqdim edilməlidir. Bu da təşəbbüskarlığı xeyli aşağı saldı. Biz fəallığın da artırılmasını düşünməliyik, təkcə intizamla məsələlər həll olunmur. Keçən dəfə Ziyafət müəllim bizə irad bildirdi ki, mövzudan kənara çıxırsınız. Amma qanunvericilikdə, Milli Məclisin Daxili Nizamnaməsinin 13-cü maddəsində də göstərilir ki, çıxış etmək üçün müraciət edən şəxs çıxışa israr edirsə, protokol tərtib olunur və ona yenidən söz verilməsi təmin olunur. Bir çox məsələlərdə deputatların izahat verməsinə ehtiyac var". **F.Mustafa dedi ki, deputatların çıxış imkanından yararlana bilməməsi sonradan qanunlarda boşluqların yaranmasına səbəb olur:** "Bu baxımdan xahiş edirəm ki, növbəti sessiyada deputatların hüquq və səlahiyyətlərinin genişləndirilməsi, qanunların icrasına nəzarət mexanizmində rol alması təmin olunsun".

**Milli Məclisin sədri dedi ki, nizam-intizam olmazsa, məhsuldar iş də olmaz:** "Milli Məclisin Daxili Nizamnaməsində də qeyd edilib ki, deputatlar əsasən gündəlik ətrafında çıxış etməlidir. Xahiş edirəm, bu məsələləri "Deputatın statusu haqqında" qanuna dəyişiklik layihəsi müzakirə edilərkən qaldırın".

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqına" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsinin müzakirəsi zamanı isə mübahisələr də yarandı.

**Deputat Fərəc Quliyev** MDB ilə bağlı belə layihələrdən uzaq durulmasını, Moldova və Ukraynanın belə sazişlərə qoşulmadığını qeyd edib. Eyni zamanda sazişdə kadr hazırlığının rus dilində aparılması barədə müddəanı məqbul saymadığını söyləyib: "Rusiya və Ermənistan ortaq ordu yaradıb. Bizim polislər, daxili qoşunlar üçün kadrlar niyə bu qaydada hazırlanmalıdır?"

**Deputat Vahid Əhmədov xatırlatdı ki, bu saziş 2007-ci ildə imzalanıb:** "Üstündən 12 il keçib, bu müddətdə saziş niyə Milli Məclisdə təsdiq olunmayıb? Digər tərəfdən, Gürcüstan, Ukrayna və Moldova bu sənədə imza atmayıb. İkincisi də burada rus dilində təhsil almaqdan bəhs olunur. Xahiş edirəm bu məsələyə aydınlıq gətirəsiniz".

Spiker dedi ki, biz MDB-nin üzvüyük. İkincisi də tərcüməçi ilə bir-biri ilə ünsiyyətdə ola bilərlər. Ancaq ümumilikdə rus dilində öz aralarında danışa bilərlər. Spiker beynəlxalq sazişdə bir dillə bağlı məsələnin əksini tapmasının normal olduğunu qeyd etdi.

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə bunun beynəlxalq saziş olduğunu qeyd edib:** "Biz nə zaman istəsək, bu sazişin yaratdığı imkanlardan istifadə edə bilərik. Azərbaycanda Polis Akademiyası var və yüksək səviyyəli kadrlar hazırlanır". Komitə sədri dedi ki, bu məsələni çox siyasiləşdirdik və buna ehtiyac yoxdur.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

**"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi ikinci oxunuşda müzakirə olunarkən Qüdrət Həsənquliyev söz alaraq layihədəki bəzi məqamlara etirazını bildirdi:** "Mərkəzi Bankla bağlı məsələ çox ciddidir. Layihəyə əsasən, Hesablama Palatası müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqanın icazəsi ilə Mərkəzi Bankda növbədənkənar audit apara bilər. Hesablama Palatasına belə məhdudiyyət qoyulmamalıdır. Hesablama Palatasına necə bu səlahiyyəti verməmək olar? Hesab edirəm ki, bu müddəa buradan çıxarılmalıdır. Hesablama Palatası heç kimlə razılaşdırmadan yoxlamalar aparmalıdır".

Q.Həsənquliyev əlavə etdi ki, Hesablama Palatası hər hansı məhdudiyyət qoyulmadan Mərkəzi Bankda yoxlama aparmaq səlahiyyətinə malik olmalıdır.

Eyni zamanda Q. Həsənquliyev bundan əvvəlki qanunun müzakirəsi zamanı çıxış üçün düyməni bassa da, vaxtında çıxışa yazıla bilmədiyini bildirdi və texniki işçiləri diqqətli olmağa çağırdı.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə isə qanunun 12-ci maddəsinə texniki dəyişikliyin nəzərdə tutulduğunu, Q. Həsənquliyevin isə qanunun 58-ci maddəsindən danışdığını bildirdi:** "Hazırkı qanun layihəsində 58-ci maddəyə dəyişiklikdən söhbət getmir".

**Spiker Oqtay Əsədov isə deputatın çıxışa yazıla bilməməsi barədə dediklərinə reaksiya verərək bildirdi ki, düyməni yaxşı basmaq lazımdır:** "Düyməni düzgün basmamısınız, texnika səhv işləyə bilməz".

Bundan sonra layihə səsə qoyularaq qəbul edilib.

Milli Məclis yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamaların aparılmasına icazə verilməsini nəzərdə tutan dəyişikliyi qəbul edib.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunun 2-ci maddəsinə (Qanunun tətbiq dairəsi) dəyişiklik layihəsi müzakirə edilərək qəbul olunub. Dəyişikliyə əsasən, qanunun mövcud 2-ci maddəsində nəzərdə tutulmuş yoxlamalar siyahısına yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar da əlavə edilib. Sənədin qeyd hissəsində bildirilir ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamaların aparılmasına tətbiq edilən məhdudiyyəti aradan qaldırmaq məqsədilə hazırlanıb. Qanuna əsasən, ölkədə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılıb.

Lakin insanların həyat və sağlamlığının qorunması, dövlətin təhlükəsizliyinin və iqtisadi maraqların müdafiəsi məqsədilə qeyd olunan hallarda yoxlamaların həyata keçirilməsinə yol verilir.

**Deputat Fazil Mustafa sahibkarların pozulan hüquqlarından bəhs etdi:** ""Binə" və "Sədərək" ticarət şəbəkəsində 7-8 min mağaza mövcuddur. Bu, təxminən 30 minə yaxın vətəndaşı, işçini əhatə edir. Ancaq bütün mağazaların mülkiyyəti mağazanın sahiblərinə deyil, məhz ticarət müəssisəsinin sahibinə malikdir. Bu, ona bənzəyir ki, bina tikilir verilir sakinə, sonra bina sahibi deyir ki, bu binada icarəçi kimi yaşamalısan. Həmin mağazalar 80 min manatdan 200-250 min manata kimi vətəndaşlara satılıb. Lakin əməliyyat qeyri-rəsmi aparıldığı üçün bu məbləğdə pul ödəyən sahibkarlar mülkiyyət sahibi ola bilməyiblər. Yalnız icarə hüququ əsasında orada fəaliyyət göstərməyə malikdirlər. Bu, feodal qaydaları ilə vətəndaşın mülkiyyət hüququnun pozulmasının bir nümunəsidir". F.Mustafa yoxlamalarla bağlı dəyişiklikləri məqbul saymadı.

Deputat Qüdrət Həsənquliyev isə "Diqlas"dakı yanğını xatırladaraq dedi ki, həmin hadisədən sonra həmkarının bu dəyişikliklərə etirazını təəccüblə qarşılayıb. Ancaq o, F.Mustafanın digər fikirlərini təqdir etdi.

Komitə sədri Ziyad Səmədzadə isə "Diqlas" yanğınından bəhs edərək dəyişiklikləri zəruri saydı.

**Spiker Oqtay Əsədov F.Mustafanın fikirlərinə sərt reaksiya verdi:** "Azərbaycanda islahatlar aparılır, prezident müəyyən işlər görür. Mən hələ görməmişəm ki, siz çıxışlarınızda bu barədə bir söz deyəsiniz. Harada bir çatışmazlıq var, onu deməyə başlayırsınız. Azərbaycanı Tacikistanla müqayisə edirsiz. Xahiş edirəm bu məsələləri çox şişirtməyin. 7 dəqiqə danışdınız, Azərbaycanda gedən işlər barədə bir müsbət söz söyləmədiniz. Hamısı mənfi məsələlər oldu".

İclasda Miqrasiya Məcəlləsinə dəyişiklik layihəsi də müzakirə olundu. Dəyişiklik Azərbaycanda fəaliyyət göstərən banklara müddətli zəmanət müqavilası əsasında azı 100 min manat məbləğində pul vəsaiti qoyan əcnəbiyə ölkədə yaşamaq icazəsinin verilməsi və digər güzəştlərlə bağlıdır.

**Deputat Qüdrət Həsənquliyev söz alaraq əcnəbilərin yaşadığı ərazi üzrə qeydə alınması zərurəti barədə elanın hələ Azərbaycana enər-enməz verilməsini doğru saymadı. Bildirdi ki, ölkəmizə dincəlməyə gələn turistdə bu kimi elanlar mənfi rəy yarada bilər, həm də ölkəmizin imici baxımından normal görünmür.** "Deyək ki, turist "Hilton" hotelində qeydiyyata düşdü, amma orada qalmadı, getdi Şəkidə qaldı. Hər gün gecə yarısı hotelin qapısınımı döymək lazım gələcək, o, hoteldədir, yoxsa yox? Məncə, bu məsələyə yenidən baxmaq lazımdır. Çünki bu, həm də siyasi məsələdir, xahiş edirəm siyasi hakimiyyətlə məsləhətli şəkildə bu müddəaya baxılsın".

Layihə müzakirə edildikdən sonra səsverməyə çıxarılaraq qəbul olundu.

Qeyd edək ki, mayın 31-də Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçiriləcək. İclasda "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq. Bu barədə parlamentin dünən keçirilən plenar iclasında spiker Oqtay Əsədov məlumat verdi.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Bakı-Vaşinqton münasibətlərində yeni mərhələ

## Asim Mollazadə: “Ağ Ev Administrasiyasının erməni lobbisi qarşısında hər hansı məsuliyyəti yoxdur”

**Son bir həftədə ABŞ prezidenti Donald Tramp azərbaycanlı həmkarı İlham Əliyevə iki təbrik məktubu yollayıb: 28 May Respublika Günü və Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə bağlı. Bu məktublarda dünyanın supergücünün ölkəmizlə əməkdaşlıqda maraqlı olması əsas tezis kimi keçir. Hər iki məktubda daha çox enerji, ticarət, iqtisadiyyat, hərbi, terrorla mübarizə və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri yer alıb.**

Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə “Yeni Müsavat”a bildirdi ki, bu məktublar Azərbaycan-Amerika münasibətlərinin yüksək səviyyədə olduğunun təzahürüdür: “Ölkələrimiz arasında çoxşaxəli əməkdaşlıq mövcuddur. Təhlükəsizlik, enerji, iqtisadi və digər sahələr üzrə əlaqələr get-gedə inkişaf edir. Son zamanlar münasibətlərin daha sürətlə inkişaf etməsinin bir sıra səbəbləri oldu. Əvvəlki administrasiyada bir çox siyasətçilərin Amerikanın erməni diasporu ilə çox sıx əlaqələri var idi. Amma Tramp Administrasiyasının erməni lobbisi qarşısında hər hansı bir məsuliyyəti yoxdur. Bunlar Azərbaycanın Amerika üçün önəmini yaxşı anlayırlar. Ölkəmizin regionda əsas inkişaf edən bir dövlət olduğunu da bilməmiş deyillər. Azərbaycanı Amerikaya tərəfdaş ölkə sayaraq, münasibətlərin inkişafı istiqamətində zəruri addımlar atırlar. Biz münasibətləri daha çox inkişaf etdirməliyik. Əməkdaşlığımız mütəmadi xarakter daşımalıdır”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Trampın məktubları ilə yanaşı Rusiya prezidentinin də məktubunu şərh etdi:** “Hər iki məktubun mətnini oxuduqda Moskvanın və Vaşinqtonun Azərbaycana münasibəti aydın olur. Rusiya prezidentinin təbrik məktubunda bunlar yazılıb: ”Hörmətli İlham Əliyev. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Sizin ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır. Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər. Əminəm ki, biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik. Heç şübhəsiz ki, bu, dost xalqlarımızın əsas mənafelərinə uyğundur. Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə firavanlıq və rifah diləyirəm". **ABŞ prezidenti Donald Trampın məktubunda isə bunlar yazılmışdı:** “Hörmətli cənab Prezident, 28 May - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını Amerika xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. 1918-ci ildə həmin gün Azərbaycanın müstəqilliyi elan olunub və Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb. Yüz ildən artıq bir vaxt keçdikdən sonra ABŞ bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur. Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk Qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik. Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram. Xahiş edirəm bu əlamətdar ildönümü münasibətilə bir daha təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz”. Aydındır ki, məktubları prezidentlər özləri yazmır, buna onların vaxtı yoxdur, dövlət başçıları müşavirlərinin hazırladıqları mətnləri oxuyub kiçik düzəlişlərlə imza atırlar. Buna baxmayaraq, məktublardakı tezislər çox şeydən xəbər verir. Birincisi, Donald Trampın təbrik məktubu Vladimir Putinin təbrik məktubundan daha geniş və konkretdir. Tramp Azərbaycanda Respublika Gününün və Azərbaycanın müstəqilliyinin əhəmiyyətini vurğulayır. Putin məktubunda Azərbaycanın müstəqilliyi xüsusi olaraq vurğulanmır. İkincisi, Putinin məktubunda Dağlıq Qarabağ münaqişəsindən bir cümlə də yoxdur, halbuki Trampın məktubunda bu mövzuya xüsusi diqqət ayrılıb. Bu onu göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Putin üçün əsas məsələ deyil. Üçüncüsü, Putinin məktubunda Azərbaycanla tərəfdaşlığın qarşısında “strateji” sözü var, Tramp isə “güclü tərəfdaşlıq” ifadəsindən istifadə edib. Dördüncüsü, Tramp İlham Əliyevə göndərdiyi bütün məktublarda olduğu kimi, Cənub Qaz Dəhlizi təşəbbüsündən və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində oynadığı önəmli roldan söz açıb. Putinin məktubunda enerji əməkdaşlığı ilə bağlı bir cümlə belə yoxdur. Çünki belə bir əməkdaşlıq yoxdur. Donald Tramp bir neçə gün sonra İlham Əliyevə növbəti məktubunu göndərdi. Bu məktub Azərbaycanda keçirilən neft və qaz sərgisi ilə bağlı idi. Amerikadan hətta sərgidə iştirak etmək üçün yüksək rütbəli diplomat Bakıya gəldi və İlham Əliyevlə görüşdü. Onu da nəzərə almaq lazımdır ki, Donald Tramp bir çox ölkə, o cümlədən tərəfdaşları ilə münasibətlərdə problem yaşayır. Buna baxmayaraq, Tramp Azərbaycanla münasibətlərə önəm verir. Bu Azərbaycanın da xeyrinədir".



**❑ Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# ABŞ-ın İrana sülh şərtləri müharibəyə aparır

## Nə Tehran, nə də Vaşinqton geri çəkilmək fikrindədir...

**Yaponiyada səfərdə olan ABŞ prezidenti Donald Tramp İranla nüvə proqramı ilə əlaqədar müzakirə apara biləcəyini deyib. Tramp bildirib ki, İranın həqiqətən anlaşma əldə olunmasını istədiyinə inanır: “Bu, onlar üçün çox ağıllı addım olardı. Məncə, bunun olması mümkündür. İran eyni hakimiyyət komandası ilə böyük bir ölkə olmaq imkanına sahibdir. Biz rejimi dəyişdirmək istəmirik. Yalnız nüvə silahı istəmədiyimizi anlatmağa çalışırıq”.**





Qeyd edək ki, bu açıqlamaya cavab olaraq xarici işlər naziri Cavad Zərif bildirib ki, İran onsuz da nüvə silahı əldə etmək istəmir, çünki ali dini liderin də nüvə silahının haram olması ilə bağlı fətvası mövcuddur. Eyni zamanda İran XİN bəyan edib ki, rəsmi Tehran indiki şərtlərdə nüvə müzakirələri üçün səbəb görmür. Nazir Cavad Zərif isə deyib ki, ABŞ-ın siyasəti İran xalqına zərər verir. Onun sözlərinə görə, Trampın əsl niyyətini dediyi sözlər deyil, hərəkətləri göstərəcək.

Trampın müzakirə çağırışına İran prezidenti də münasibət bildirib. Həsən Ruhani deyib ki, ABŞ daha əvvəl götürdüyü öhdəliklərə bağlı qalaraq müzakirə masasına geri dönərsə, danışıqlar ola bilər. Ruhani deyib ki, ABŞ İrandakı rejimə düşmən olduğunu desə də, tətbiq etdiyi sanksiyalarla İran xalqına savaş açıb. Həsən Ruhani deyib ki, Amerika anlaşmaya geri dönərsə, müzakirələri başlada bilərlər. Sitat: **“Bizim üçün ölçü onların sözləri deyil, fəaliyyətləridir. İran xalqına yönəlmiş embarqoları bir kənara qoyduqda və öhdəliklərə sadiq qalıb yenidən danışıqlar masasına geri dönərlərsə, müzakirə yolumuz qapalı deyil”.**

İranda dövlətin birinci şəxsi hesab olunan ali dini lider Seyid Əli Xameneyi isə ABŞ-la müzakirələrin faydasız olduğu ilə bağlı açıqlama verib. Ali dini lider deyib ki, ABŞ-la danışıqların faydası deyil, zərəri var. Ona görə də danışıqlar olmayacaq.

Qeyd edək ki, İranın ali dini lideri dəfələrlə verdiyi açıqlamalarda Qərblə nüvə müzakirələrinə qarşı olub. Bu səbəbdən də indi İranda “mühafizəkar” qanad nüvə müzakirələrinə qarşıdır, ancaq Həsən Ruhaninin mənsub olduğu “islahatçılar” qanadı danışıqlara, o cümlədən Amerika ilə nüvə danışıqlarına müsbət yanaşır. Lakin Trampın ötən ilin mayında İranla nüvə anlaşmasından çıxması İranda “islahatçılar” qanadının arqumentini əlindən alıb. Bu səbəbdən də son olaraq iki həftə əvvəl ali dini lider müzakirələrin olmayacağını bəyan edib. Bundan sonra isə İran Atom Enerjisi Qurumu nüvə fəaliyyətlərini yenidən başladacaqları ilə bağlı açıqlama yayıb.

Ancaq eyni zamanda ali dini lider ötən gün etdiyi çıxışında Avropa və digər başqa ölkələrlə danışıqlara qarşı olmadığını deyib. Dini lider deyib ki, İranın Avropa ölkələri ilə müzakirələri, danışıqları davam edir, ancaq ABŞ-la danışıqlar olmayacaq. O deyib ki, Amerika ilə danışıqların İrana heç bir faydası olmur, əksinə, zərərləri var. Əli Xameneyi deyib ki, hazırda ABŞ hakimiyyətinin etdiyi İranı təzyiq etməklə müzakirəyə məcbur etməkdir, bu isə müzakirə deyil, təzyiqdir, “ABŞ müzakirələri taktika olaraq istifadə edir” - deyə dini lider bildirib.

Doğrudur, ilk baxışdan hər iki tərəfin açıqlaması pozitiv ovqatdadır, müharibənin olmadığı, müzakirə çağırışının yer aldığı bir açıqlamadır. Mayın əvvəlindən bu yana davam edən gərginliyin fonunda ciddi bir yumşalma işarəsi kimi də görünə bilər, amma bu, sadəcə, ilk baxışdan belədir, çünki faktiki olaraq hər iki tərəfin təklif etdiyi şərt qəbul olunan deyil. Başqa sözlə, hər iki tərəf geri çəkilmir və bu proses qarşıdurmanı daha da dərinləşdirəcək.

Məsələ ondadır ki, 2018-ci ilin mayında İranla “altılıq” ölkələri arasında imzalanmış anlaşmadan çıxarkən ABŞ prezidenti öz şərtlərini elan edib. Bu şərtlərə İranın nüvə fəaliyyətlərinin daha ciddi şəkildə yasaqlanması, İranın ballistik raket proqramının və Yaxın Şərqdəki silahlı qruplara dəstəyini dayandırması. Ancaq İran ilk gündən bu şərtləri rədd edib və yalnız ABŞ-ın 2015-ci ildə imzalanmış müqaviləyə geri dönəcəyi halda danışıqlara davam edə biləcəyini bəyan edib.

İndiki halda ABŞ-ın gün-gündən İrana təzyiqləri artırdığı bir vaxtda ABŞ prezidentinin İran rəsmiləri üçün telefon nömrəsi qoyaraq zəng gözlədiyini deməsi və bütün bunların fonunda Fars körfəzinə gəmilər, təyyarələr göndərməsi ABŞ-ın İrana təzyiq siyasətidir. Tehran rəsmiləri isə geri çəkilmək istəmir.

Yeri gəlmişkən, iki gün əvvəl Əbu-Dabidə səfərdə olan ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton körfəzdə mayın əvvəlində baş vermiş hücumlara görə İranı ittiham edib. İstintaqın davam etdiyi bir vaxtda Boltonun imzasız hücuma görə İranı ittiham etməsi həm də Vaşinqtonun körfəzi silahlandırmasının izahı sayıla bilər. Bir tərəfdə Tramp İranla anlaşmaq, müzakirələr aparmaq istədiyini deyir, o biri tərəfdə onun müşaviri terror hücumuna görə İranı hədəf göstərir, paralel olaraq körfəzə ABŞ gücləri göndərilir. Bu gərginliyin hansı nöqtəyə qədər yüksələcəyini demək çətindir, amma bir şey məlumdur ki, hər iki tərəf geri çəkilmək fikrində deyil.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019

# Anar Məmmədov ölkəyə qayıtdı - "mülk davası yenidən qızışır" iddiası

## Vəkili eks nazirin oğlunun Bakıda olduğunu təsdiqlədi; "Yelkən hotel" açıla bilər; Ziya Məmmədovun övladının məhkəmələrə müraciət edib əmlaklarını geri istəməsi nə ilə nəticələnə bilər?


Washington Post/Getty Images

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov Bakıda keçirilən "Arsenal"-"Çelsi" oyunundan özünün İnstaqram səhifəsində video paylaşıb. Videodan belə anlaşılır ki, sabiq nazir oğlu Bakıdadır. Buna qədər Anar Məmmədovun ölkəyə qayıdışının mümkün olmayacağı haqda xəbərlər dolaşırdı. Bildirilirdi ki, Anar Məmmədovun Bakıdakı fəaliyyəti arzuolunmazdır, onun ölkəyə gəlməsi də bu baxımdan baş tutmaya bilər. Belə görünür ki, ötən illər ərzində Məmmədovlara qarşı münasibət dəyişib. 15 gün əvvəl Anar Məmmədovun əmisi Elton Məmmədov Azərbaycan Texniki Universitetində (AzTU) Strateji inkişaf üzrə prorektor təyin edilib. Hansı ki, 3 çağırış deputat olub, Bakı Beynəlxalq Avtovağzalı da onun şirkətinin nəzarətində idi. Ziya Məmmədov vəzifəsindən çıxarılandan sonra kompleks Elton Məmmədovdan alınaraq Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyinin balansına verilib. Elton Məmmədov son seçkilərdə deputat ola bilməmişdi.**

Bakı Beynəlxalq Avtovağzalı "2009-2013-cü illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Nəqliyyat Nazirliyinin sifarişi ilə tikilib. Obyekt o zaman nazir olan Ziya Məmmədovun ailə biznes imperiyasını özündə birləşdirən "ZQAN" Holding tərəfindən inşa edilmişdi. Baş podratçı isə "Bakı XXI Əsr" MMC adlı şirkət idi. "Bakı XXI Əsr" MMC-nin təsisçisi Böyük Britaniyanın Vircin adalarındakı "Trans European Leasing Group" LTD-dir. "Bakı XXI Əsr" MMC Azərbaycanda 2004-cü ilin martında qeydiyyatdan keçib. Həmin şirkətin isə təsisçisi o vaxt deputat olan Elton Məmmədov idi. E.Məmmədov özü mətbuata bu şirkətin təsisçisi olduğunu təsdiqləmişdi. Avtovağzal kompleksinin 80-100 milyon dollara başa gəldiyi bildirilir. Kompleksə 1500 mağazadan ibarət ticarət mərkəzi, irili-xırdalı onlarla kafe, 4 ulduzlu "Comfort İNN" hoteli, 720 yerlik avto dayanacaq, "Bakı XXI Əsr" adlı yanacaqdoldurma, avtoyuma və təmir məntəqələri daxil idi...



Məmmədovların yenidən fəallaşması, Elton Məmmədovun vəzifəyə təyinat alması, Anar Məmmədovun ölkəyə qayıtması onlara münasibətdə maraqlı gəlişmələrin olduğunu göstərir.

Anar Məmmədov atası Ziya Məmmədov vəzifəsini itirməzdən çox əvvəl ölkədən getmişdi. Onun Böyük Britaniyanın paytaxtı Londonda məskunlaşdığı haqda xəbərlər vardı. Həmin dövrdə Məmmədovların "ZQAN" adı ilə qurduqları, sonradan "Garant"a çevrilmiş holdinqlərinə daxil olan şirkətlər nəzarətlərindən çıxarılırdı. Hətta 2018-ci ildə Anar Məmmədovun Bakıdakı bir neçə daşınmaz əmlakı üzərinə həbs də qoyulmuşdu. Məlum olmuşdu ki, Anar Məmmədov və şirkətlərinin "Paşa Bank"a kredit borcu var. O dövrdə məhkəmədə cavabdeh qismində "Garant İnşaat Sənaye" MMC, "Garant Holding" MMC, "Azpod" MMC və Anar Ziya oğlu Məmmədovun adları keçirdi. Abşeron Rayon Məhkəməsi onlara məxsus bir neçə əmlakın - Bakı şəhəri, Nərimanov rayonu, 507-ci küçə, 2093-cü məhəllədə yerləşən müəssisə, eyni zamanda əmlak kompleksi, Nərimanov rayonu, İslam Abışov küçəsi, 5A ünvanında yerləşən qeyri-yaşayış binası və Anar Məmmədovun mülkiyyətindəki Nərimanov rayonu, Məmməd Araz küçəsi, 25V, giriş 5 ünvanında yerləşən 9 saylı qeyri-yaşayış sahəsinin üzərinə həbs qoymuşdu. Söhbət 1 milyon 141 min 203 manat 17 qəpikdən gedirdi. Bu, bankdan götürülən kredit, kredit faizləri və hesablanmış cərimənin toplam məbləği idi. Bank məhkəmədən borcun ipoteka predmetinə yönəldilməsini də tələb etmişdi. Apelyasiya şikayəti verən "Garant İnşaat Sənaye" MMC banka olan borcu müqabilində 2 milyon 300 min manatdan yuxarı dəyərdə əmlak təminatı verdiyini göstərmişdi. Şikayətdə vurğulanmışdı ki, Abşeron Rayon Məhkəməsinin qərarında bu hal nəzərə alınmayıb və "qeyri-mütənasib olaraq, tərəflərin mülkiyyət hüquqlarının həyata keçirilməsi kobud şəkildə pozulub". Ancaq daha sonra Anar Məmmədov şikayətini geri götürmüşdü.

Üzərinə həbs qoyulmuş Nərimanov rayonu, 507-ci küçə, 2093-cü məhəllədə tikinti sektorunda da fəaliyyət göstərən "ZQAN Konstrakşn" MMC, Məmməd Araz küçəsi, ev 25V ünvanında isə keçmiş "Bank of Azerbaijan" ASC-nin 18 saylı filialı yerləşirdi. Anar Məmmədovun 7 ilə qədər ardıcıl inşaat işləri aparılan Bakıdakı 33 mərtəbəli hotelinin qapılarının bu günə qədər qapalı qalması da onun ölkəyə qayıtmayacağı iddialarını gücləndirmişdi. Belə söhbətlər yayılmışdı ki, Məmmədovlar Bakıdakı "Yelkən-hotel"i (əvvəlki adı "Trump Tower Baku") Türkiyədən olan bir iş adamına satıb. Yelkən formasında tikilən bina 72 apartament və 189 hotel otağından ibarətdir. Sahələri 84-890 kvadrat metrədək dəyişən 70-dən çox apartamentin uzunmüddətli icarəyə verilməsi nəzərdə tutulurdu. Hotelin ərazisində qapalı hovuzlu SPA-kompleks, fitnes mərkəzi, biznes mərkəzi və təmtəraqlı restoran inşa olunub. Hotelin birinci mərtəbəsində konfrans zalı, nahar zalı və bar, 500 kvadrat metr sahəsi olan qəbul zalı yerləşir. Tikilinin dizaynı mənzil qərargahı Londonda yerləşən "Mixity Design Ltd" şirkəti tərəfindən hazırlanıb. Hotelin əsas səhmdarlarından biri rəsmi olaraq Anar Məmmədovdur və 2008-ci ildə başlayan tikintini də onun şirkəti həyata keçirib. Hotelin hələ 2015-ci ildə Avropa Oyunları ərəfəsində istifadəyə veriləcəyi məlum idi, bu barədə rəsmi mənbələr hələ bir il əvvəl məlumat yaymışdı. Gözlənilirdi ki, Bakıya xüsusi bir yaraşıq verən bu hotel Avropa Oyunlarınadək istifadəyə veriləcək. Avropa Oyunları o zaman hələ "Trump Towers" adlanan brendin həm tanınması, həm də təbii ki, qazanc əldə etməsi üçün yaxşı şans yaradırdı. Amma hotelin açılışı olmadı. 4 ildir ki, hotel fəaliyyətsizdir. Hətta 2018-ci ildə hotelin fasadında meydana gələn yanğından sonra belə xəbərlər də vardı ki, tikili ümumiyyətlə sökülə bilər. Fasadında xüsusi qurğuların quraşdırılması hotelin sökülə biləcəyi ehtimalını artırırdı. Bu gün də açılışı olmayan binanın təmirə hazırlandığı və ya söküləcəyi haqda heç nə məlum deyil.

Bundan başqa, Məmmədovlara məxsus Qubadakı beşulduzlu "Quba Rixos" hoteli də rebrendinq edilib. Hotel 2018-ci ilin aprelindən "Quba Palace" adı ilə fəaliyyətə başlayb. Qeyd edək ki, Azərbaycanda ilk və yeganə qolf meydançasına malik keçmiş "Rixos" hotel kompleksi 2013-cü ildə istifadəyə verilib.

"Yeni Müsavat"ın əməkdaşı Anar Məmmədovun ölkəyə qayıtması, holdinqinə daxil olan, sonradan digər şirkətlərin nəzarətinə keçən şirkətlərlə bağlı məhkəmələrə üz tutması, "Yelkən hotel"in açılışı və s. məsələlərlə bağlı onun vəkili Nihat Axundovla əlaqə saxlayıb. Vəkil müvəkkilinin Azərbaycanda olduğunu deyib, bildirib ki, digər məsələlərlə bağlı müvəkkilinin mövqeyini açıqlayacaq. Vəkilin təqdim edəcəyi açıqlamanı da təqdim edəcəyik.

**❑ Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "Cinayət yolu ilə əldə edilmiş pullarla" mübarizə Vergilər Nazirliyinə tapşırıldı

## Hüquqşünas: "Düşünürəm ki, bu mərkəz, nəhayət, işləməyə başlayacaq"

**Prezident İlham Əliyev cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən Vergilər Nazirliyi Maliyyə Monitorinqi Xidmətinin (MMM) həmin nazirliyin tərkibində fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb prezidentə təqdim etməlidir. Layihələri hazırlayarkən nazirlik cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq standartlara və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə riayət olunmasını təmin etməlidir.

**Prezidentin sərəncamını şərh edən hüquqşünas Əkrəm Həsənovun "Yeni Müsavat"a dediyinə görə, beynəlxalq təcrübədə çirkli pulların yuyulmasına qarşı mübarizə ilə məşğul olan qurumların müstəqil fəaliyyət göstərməsi praktikası daha geniş yayılıb:** "Bildiyiniz kimi, Azərbaycanda Maliyyə Monitorinqi Xidməti əvvəlcə Mərkəzi Bankın nəzdində, daha sonra Maliyyə Bazarlarına Nəzarət Palatasının tərkibində fəaliyyət göstərib. Səhv etmirəmsə, ötən ilin may ayında prezidentin fərmanı ilə ona müstəqillik verilib. Lakin ötən müddət ərzində mərkəzə rəhbərlik təyin olunmadı. Dünyada praktika belədir ki, belə qurumlar gərək müstəqil olsun. Buna görə də beynəlxalq təşkilatlar Mərkəz Palatanın tərkibinə veriləndə bundan narazı qalmışdılar. İndi də daha yaxşısı bu olardı ki, Maliyyə Monitorinqi Mərkəzi Vergilər Nazirliyinin tərkibində deyil, nəzdində fəaliyyət göstərsin".

**Hüquqşünasın fikrincə, MMM-in Vergilər Nazirliyi tərkibində fəaliyyət göstərməsi onun fəaliyyətində müsbət dönüş yarada bilər:** "Etiraf edək ki, indiyədək bu qurumun real fəaliyyəti demək olar ki, olmayıb. Çirkli pulların yuyulması, yaxud terrorçuluğun maliyyələşdirilməsinə görə Azərbaycanda kimi məsuliyyətə cəlb ediblər? Belə fəaliyyət yoxdur bizdə? Əlbəttə, var. Dünyanın ən inkişaf etmiş ölkələrində belə var və hər il nə qədər insan bu fəaliyyətə görə məsuliyyətə cəlb olunur. Buna görə də Maliyyə Monitorinqi Mərkəzinin fəaliyyətində effektivliyin artırılmasına böyük ehtiyac var. Düşünürəm ki, mərkəzin Vergilər Nazirliyinin tabeliyinə verilməsi bu sahədə müsbət irəliləyişə səbəb olacaq. Çünki Vergilər Nazirliyi bu gün yeganə qurumdur ki, həqiqətən də çirkli pulların yuyulmasına qarşı mübarizə aparmaqda maraqlıdır. Bundan əvvəl mərkəzin tabe olduğu qurumların ikisi də bankların maraqlarını üstün tuturdular. Hazırda Vergilər Nazirliyi ölkədə ən şəffaf qurumlardan biridir, kölgə iqtisadiyyatına qarşı mübarizənin önündə gedir. Bu baxımdan, düşünürəm ki, Maliyyə Monitorinqi Mərkəzi, nəhayət ki, işləməyə başlayacaq. Sadəcə, Vergilər Nazirliyi mərkəzin səlahiyyətlərini elə müəyyənləşdirməlidir ki, beynəlxalq təşkilatlarla hər hansı problem yaranmasın".

**❑ DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019

**Mayın 29-da Prezident İlham Əliyev “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” sərəncam imzalayıb.**



# Energetika sektorunun yeni inkişaf strategiyası

## İlham Şaban: “Strategiyanı hazırlayanlar sektordakı bütün prosesləri nəzərə almalıdırlar”

Sərəncama əsasən, Energetika Nazirliyi qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla bir il müddətində “Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası”nın layihəsini hazırlayacaq. Nazirlik həmçinin 3 ay ərzində elektroenergetika sektorunda rəqabətə əsaslanan liberal bazar modelinə mərhələli keçidlə bağlı, 6 ay müddətində İqtisadiyyat Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırmaqla ölkənin elektroenergetika sisteminin səmərəliliyinin artırılması məqsədi ilə bu sahəyə özəl investisiyaların cəlb edilməsi barədə, 4 ay müddətində bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinə dair, 6 ay ərzində ölkədə qaz və istilik təchizatı sistemlərinin səmərəliliyini artırmaq, istehlakçıların tələbatının etibarlı şəkildə ödənilməsini təmin etmək üçün bu sahələrdə islahatların aparılması ilə bağlı təkliflərini hazırlayaraq prezidentə təqdim edəcək. Bütün bu işlərə beynəlxalq məsləhətçilər də cəlb olunacaq.

Nazirlər Kabineti Energetika Nazirliyinin təklifləri əsasında 1 il müddətində “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında”, “Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında” qanunların layihələrini, habelə “Energetika haqqında” və “Qaz təchizatı haqqında” qanunların yeni layihələrini prezidentə təqdim edəcək.

**“Neft” Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban qeyd edir ki, prezident ölkənin orta perspektivində mühüm rol oynayacaq bir sənədə imza atıb:** “Dövlət başçısı Caspian Oil & Gas-2019 sərgisinin açılışında etdiyi çıxışında vurgulamışdı ki, neft və qaz sektoru Azərbaycan iqtisadiyyatında hələ uzun müddət prioritet sahə olaraq qalacaq. Yəni prezident hökumətə mesaj verir ki, ”Siz bundan sonra nə qədər effektli işləsəniz belə, ancaq dövlət büdcəsinin gəlirlərində və ölkənin rifahında neft-qaz gəlirlərinin xüsusi əhəmiyyət daşıyacaq". Bu baxımdan, sözügedən strategiyanın gündəmə gəlməsinə böyük ehtiyac var. Məhz onun mükəmməl bir sənəd kimi işlənməsinin və daha sonra icra edilməsinin iqtisadiyyatın digər sahələrinə bu və digər dərəcədə təsirləri olacaqdır ki, nəticə Azərbaycanın inkişaf perspektivləri ilə bağlı olacaq".

**Mütəxəssis hesab edir ki, strategiya hazırlanarkən bir sıra məqamlar nəzərə alınmalıdır:** “Azərbaycan 2030-cu ilə



qədər hansı istiqamətdə inkişaf edəcək: ona daxili bazar üçün nə qədər neft məhsulu lazımdır. Dünyadakı innovativ texnologiyalar necə dəyişir: nəqliyyatda, evlərin qızdırılmasında, sənayenin enerji yükünün azaldılması yönümündə. Bunları əldə edib tətbiq etmək ölkənin inkişafına necə təkan verə bilərdi? Strategiya bu məqamlar nəzərə alınmaqla, müvafiq hesablamalar aparılmaqla hazırlanmalıdır. Məsələn, Avropada artıq indi bir sıra paytaxt və tarixi-mədəni şəhərlərdə ictimai və kommersiya nəqliyyatının DİZELdən istifadəsinə qadağa qoyulub. Baxmayaraq ki, onlarda yanacaq Avro-6 standartına belə cavab verir. Ancaq CNG kimi (metan) yanacaqdan istifadə edirlər artıq, çünki təbii qazın ekoloji təsirləri dizellə müqayisədə çox aşağıdır, baxmayaraq ki, dizel benzinlə müqayisədə daha ekoloji təmizdir. Daha irəli gedən ölkələr isə qazı belə YAŞIL ENERJİ hesab etmir artıq və elektrikə keçidi sürətləndirirlər. Bu baxımdan Energetika Nazirliyinin strategiyaya məsul bir qurum kimi vəzifəsi hökumətin bütün qurumları, o cümlədən xarici və yerli beyin mərkəzləri ilə birgə işləyərək ortaya dolğun bir VİSİON qoymaqdır: Azərbaycan üçün nə məqbuldur?

Mən bir enerji eksperti kimi istəməzdim ki, bu strategiya hazırlanarkən hökumətin vaxtilə uzaqgörməyən addımı - vəsaitə qənaət etmək istəyindən doğan H.Əliyev adına Neft Emalı Zavodunun modernləşdirilməsi kimi layihəyə qol qoyulsun və Azərbaycan paytaxtının göbəyində EKOLOJİ RİSK zonası yaxın 20-30 ildə saxlanılsın. Hər bir layihənin gələcəyinə daha masştablı baxış olmalıdır, nəinki hansısa quru statistik göstəricilər əsasında. Belə olan halda bundan sonrakı 10 ildə obrazlı desək, “şəhərdə yol çəkərkən daha bir müddət sonra onu başqa bir qurumun gəlib qazmasının” qarşısını almış olarıq. Bundan udan isə həm dövlət büdcəsi, həm də cəmiyyət olar".

**İqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, sərəncam bir sıra müddəalarına görə mühüm əhəmiyyət daşıyır:** “Sərəncamda enerji sektorunun inkişafına dair strategiyanın hazırlanması nəzərdə tutulur ki, bu özü gələcəkdə Azərbaycanda bu sahədə müsbətə doğru islahatların olması ehtimalını gücləndirir. Burada bir sıra mühüm istiqamətlər müəyyənləşdirilib: enerji sektorunda bazarın liberallaşdırılması, sektorda dövlət-özəl əməkdaşlığının inkişaf etdirilməsi, alternativ enerji sahələri üzrə özəl investisiyanın cəlb edilməsi imkanlarının artırılması, enerji təchizatı sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi və sair. Sadalanan istiqamətlərin hər biri üzrə hazırda ciddi problemlərin olduğunu deməyə əsas var. Ümid edək ki, hazırlanacaq strategiya, qanun və dövlət proqramları bu çatışmazlıqların aradan qaldırılması üçün imkanlar formalaşdıracaq”.

**Ekspert hesab edir ki, strategiyada energetika sektorunda islahatların bir neçə mühüm istiqaməti əksini tapmalıdır:** “Bunlardan birincisi, enerji sektorunda özəl investisiyanın iştirakına şəraitin yaradılmasıdır. Bu, bazarın liberallaşdırılması prinsipinin tətbiqi nəticəsində mümkün olacaq. Hazırda Azərbaycanın energetika sektorunda dövlət əsas və tək inhisarçıdır. Bu isə həm sektorda fəaliyyət göstərən müəssisələrin şəffaflığına, həm də bu sahəyə yönəldilən vəsaitlərin səmərəliliyinə neqativ təsir göstərməklə yanaşı, xidmətlərin keyfiyyətinin də aşağı olmasına gətirib çıxarır. Bu baxımdan, bazarın liberallaşdırılması və özəl investisiyaların cəlbi bütün bu problemlərin aradan qaldırılmasına imkan verər. Xüsusilə də enerji təchizatı şirkətlərinin özəlləşdirilməsi çox vacibdir. Bununla bağlı strateji yol xəritələrində də tədbirlər nəzərdə tutulmuşdu, lakin hələlik real addımlar atılmayıb”.

**Enerji istehsalı və təchizatı şirkətlərinin özəlləşdirilməsi Azərbaycanda bu sahədə qiymətlərin yüksəlməsinə gətirib çıxara bilərmi? Ekspert bunu mümkün sayır:** “Təbii ki, özəlləşdirmə enerji və qaz tariflərində müəyyən artımlara səbəb ola bilər. Bu zaman dövlət tarif artımının aztəminatlı əhaliyə mənfi təsirinə qarşı sosial müdafiə tədbirlərini gücləndirmək imkanı əldə edəcək. Belə ki, hazırda enerji istehsalı və təchizatı müəssisələrinin saxlanması üçün dövlət büdcəsindən böyük həcmdə vəsaitlər sərf olunur. Eyni zamanda dövlət yeni istehsal güclərinin yaranması, təchizat şəbəkəsinin təkmilləşdirilməsi üçün də vəsait ayırır. Bunlardan əlavə, əhaliyə satılan qaz və enerjinin qiymətinə görə də subsidiya ödəyir. Özəlləşmədən sonra isə dövlət birinci iki böyük xərcdən azad olacaq. Bunun nəticəsində qənaət edilən vəsaitlərin bir qisminin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsi mümkündür. Digər tərəfdən, qiymətlərin artımı müvəqqəti xarakter daşıyacaq. Belə ki, şəffaf və rəqabətli mühitdə istehsal və təchizata yönəldilən, lakin təyinatından yayındırılan vəsaitlərə qənaət olunması nəticəsində maya dəyəri aşağı düşəcək, eyni zamanda qiymətlər rasionallaşacaq. Ötən ilin iyulunda baş verən qəzadan sonra aydın oldu ki, enerji təminatı sisteminə yatırılan 6-7 milyard manat vəsaitin mühüm bir hissəsi mənimsəmə predmeti olub. Bu hadisə həmçinin əhali və özəl sektorun belə hallarda üzləşdiyi zərərin qarşılanması mexanizminin olmadığını üzə çıxardı. Qəza nəticəsində dövlət müəssisələrinə dəyən zərər dövlətin hesabına qarşılandı, amma özəl sektor və əhaliyə münasibətdə bunun şahidi olmadıq. Özəlləşdirmə bu mühüm problemin də aradan qalxmasına gətirib çıxaracaq. Özəl şirkətlər dayanıqlı və etibarlı təminat sistemi qurmaqla yanaşı, bu sistemdə yaranan problemlərə görə məsuliyyəti də üzərlərinə götürəcəklər”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 117 (7287) 31 may 2019



# “Yeddi oğul istərəm, bircə dənə qız...”

## Sabah 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günüdür

**Sabah dünyanın əksər ölkələrində, eləcə də Azərbaycanda Uşaqların Beynəlxalq Müdafiə Günü qeyd olunacaq. Xatırladaq ki, 1 iyun 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qeyd olunması qərara alınıb. Həmin gün təşkil olunan “Qadınların Beynəlxalq Konfransı”nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib.**

Bəs ölkəmizdə uşaqların hüquqları yetərincə qorunurmu? Bu bir faktdır ki, Azərbaycanda bu gün də əhali arasında qız uşaqlarına qarşı stereotiplər səngimək bilmir. Bunun nəticəsidir ki, ötən il, yəni 2018-ci ildə qız uşaqlarının oğlan uşaqları ilə cins nisbəti 100/115-ə çatıb. Bu rəqəm isə cins balansının təhlükəli dərəcədə pozulması deməkdir. Halbuki bioloji normaya əsasən, hər doğulan 100 qıza 105 oğlan nisbəti olmalıdır.

Ümumiyyətlə, son illərdə ölkədə doğulan uşaqlar arasında oğlanların sayı çoxluq təşkil edir. Ekspertlər qeyd edir ki, əgər tendensiya belə davam edərsə, ciddi demoqrafik problemlər yarana bilər.

Xatırladaq ki, bir neçə gün öncə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Aynur Veysəlova mətbuata açıqlamasında bildirmişdi ki, son statistika yenidən həyəcanlı vəziyyət yaradıb və komitə SOS təbili çalır. A.Veysəlovanın sözlərinə görə, bu hal qadın hüquqlarının müdafiəsinin çətinləşməsi ilə yanaşı genefonda da mənfi təsiri var:

“Bəzən qadın qız uşağına hamilə olduğu üçün məcburən aborta aparılır. Bu təkcə genefond məsələsi yox, həm də qadınların sağlamlığının ciddi şəkildə pozulmasına səbəb olur. Biz həyəcan təbili çalırıq. Bu haldan ciddi narahatıq”.

Araşdırmalar da onu göstərir ki, əvvəllər Şərqi Asiyada müşahidə olunan bu hal artıq Azərbaycanda mövcud olmağa başlayıb. Bu isə gələcəkdə əhalinin struktur dəyişikliyinə çox pis nəticələrə gətirib çıxara bilər. Məsələn, Çin və yaxud Hindistan təcrübəsi onu göstərir ki, ölkədə kişilərin sayı çox olduqda evlənməyə qadın tapa bilmir, nəticədə cəmiyyətdə aqressiya, zorakılıq halları, kriminal hadisələr artır. Bütün bunlar özü ilə bərabər qız qaçırma, erkən evlənmə, insan alveri kimi problemləri də gətirir.

Görünəni budur ki, artıq bu problemlər ölkəmizin qapısını döyməkdədir. Belə ki, Ümumdünya Əhali Perspektivləri sənədinə əsasən, Azərbaycan dünyaya gələn uşaqların cinsinə görə nisbətin pozulması göstəricilərinə görə dünyada ikinci yerdədir. Bu, həqiqətən ciddi statistikadır. Beləliklə, siyahıda birinci yerdə Çin, ikinci yerdə Azərbaycan, üçüncü yerdə Ermənistan, dördüncü yerdə isə Gürcüstandır.

Bəs ölkədə qız uşaqlarının sayının azalmasına səbəb nədir? Mütəxəssislər də ən birinci səbəb kimi geniş yayılan selektiv abortları göstərir.

Araşdırmalar göstərir ki, 90-cı illərin sonuna yaxın USM-in tətbiqindən sonra selektiv abortların sayı kəskin dərəcədə artmağa başlayıb. Xüsusən də bir qız övladı olan valideynlər ikinci və yaxud üçüncü qız övladını istəmir və aborta müraciət edir.

Halbuki Azərbaycanda selektiv abort hüquqi baxımdan qadağandır. Qanuna əsasən, hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır (6 həftəlik müddətə qədər ambulatoriya şəraitində, 6 həftədən 12 həftəyədək müddətdə isə yalnız stasionarda aparılmasına icazə verilir). Bu müddətdən sonra həyata keçirilən bütün abortlar (tibbi zərurət halları istisna olmaqla) qanun pozuntusudur. Məlum olduğu kimi, 12 həftənin sonunadək embrionun cinsini müəyyən etmək mümkün deyil. Lakin bu bir faktdır ki, hamilə qadınlar bətnində qız övladı olduğunu bildikdən sonra əksər hallarda aborta üstünlük verir. Bu o deməkdir ki, ölkəmizdə selektiv abortlar qeyri-qanuni yolla daha gec hamiləlik dövründə həyata keçirilir.

### Selektiv abortların təhlükələri

Selektiv abortlar hamiləliyin daha gec dövründə baş verdiyi üçün onun qadınların fiziki və psixoloji sağlamlığına təhlükəsi daha çoxdur. Hətta selektiv abortlar nəticəsində ölüm və intihar halları da az deyil. Bu barədə vaxtaşırı informasiyalara rast gəlirik.

Dinimiz də selektiv abortlara tam qarşıdır və şiddətlə qınayır. Hazırda da müsəlman ölkələrinin əksəriyyəti abortların tam və qismən qadağan olunmasını dəstəkləyir. Şəriət qanunlarına görə, müsəlman qadınlar ərlərinin və həkimlərin ümumi razılığı əsasında bətnindəki embrionun 40 gününədək (Maliki məzhəbinə görə) və ya 120 gününədək (Hənəfi məzhəbinə görə) ondan xilas ola bilər.

### “Yeddi oğul istərəm, bircə dənə qız, gəlin!”...

Bəzi ekspertlər qeyd edir ki, ölkədə selektiv abortların artması, qız uşaqlarına olan münasibət əslində keçmişdən bu günümüzə qədər gələn mental dəyərlər, ənənələr, stereotiplərlə bağlıdır. Məsələn, toy mərasimlərində gəlinə oğlan anası olmaq arzulanır və onun qucağına oğlan uşağı qoyularaq deyilir: “Yeddi oğul istərəm, bircə dənə qız gəlin”. Yaxud “qızını döyməyən dizini döyər”, “qızı özbaşına buraxsan ya halvaçı tapar, ya da zurnaçı”, “qeyrətsiz oğuldansa kor qızım olsa yaxşıdır”, “qız yükü duz yükü”, “oğul düşmən çəpəridir” kimi deyimlər əslində gender bərabərsizliyindən və cəmiyyətdə valideynlərin qızlarının sosial və maddi uğur əldə edəcəyinə inanmadığından xəbər verir və qızlar sanki sosial-iqtisadi yük kimi dəyərləndirilir.

### Bəs problemdən çıxış yolu nədədir?

**“Təmiz Dünya” Qadınlara Yardım ictimai Birliyinin sədri Mehriban Zeynalova mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb:**

“Əslində çox təzadlı cəmiyyətdə yaşayırıq. Bir müddət bundan əvvəl qurumumuzun təşəbbüsü ilə sosial şəbəkədə aksiya şəklində hər kəs öz qızı ilə fotosunu paylaşdı. Bildiyiniz kimi, sosial şəbəkələrdə ölkənin bir çox bölgələrindən izləyicilər olur və bu cür aksiyaların kifayət qədər təsiri olur.

Səhiyyə Nazirliyi də bu məsələ ilə bağlı tədbirlər görür. Lakin bu yetərli olmur. Məktəblərdə araşdırma aparanda görürük ki, ucqar rayonlarda qız uşaqları 4-cü sinifdən sonra məktəbə qoyulmur. Və yaxud selektiv abortlar getdikcə artmağa başlayıb. Maraqlıdır ki, bu cür abortlar Səhiyyə Nazirliyi tərəfindən qadağan olunubsa, bəs onda abortlar harada, necə aparılır? Deməli ki, bu məsələ ciddi şəkildə konkretləşdirilməlidir ki, problemin həllini tapa biləkt.

Statistikanı ucqar rayon və kəndlərdə aparmaq lazımdır, hansı ki, orada qız uşaqlarını məktəbə qoymaq istəmirlər, onların sayı həddən artıq azdır. Əslində rəsmi qurumlar məhz o bölgələrdə tədqiqatlar aparmalıdır. Burada QHT-lərin də köməyindən, dəstəyindən istifadə etmək lazımdır. Lakin çox təəssüf ki, bəzi qurumlar bir çox hallarda QHT-lərin işinə “yuxarıdan-aşağı” baxır.

Bir məsələni də qeyd edim ki, təkcə cəmiyyətdə deyil, ailələrdə də iş aparmaq lazımdır. Müəyyən cərimələr tətbiq etmək olar. Həmçinin qadınlarımıza öz hüquqları izah olunmalıdır ki, o, özünə qarşı olan psixoloji zorakılığa yox deyə bilsin".

**Sosioloq Əhməd Qəşəmoğlu isə məsələyə bu cür münasibət bildirdi:**

“Bu məsələ artıq bir neçə ildir ki, aktualdır və tez-tez həyəcan təbilinin çaldığını eşidirik. Fikrimcə, bir neçə il öncəyə qədər həyəcan təbili çalmağa ehtiyac yox idi, amma hazırkı vəziyyətdə böhranlı xətti keçmişik. İllər öncə qız uşaqlarının sayı oğlanlardan çox idi. Bu yaxşı hal idi, lakin baxır bu hansı intervaldadır. Məsələn, hər 100 qıza 110 oğlan doğularsa bu çox yaxşıdır. Ona görə bu yaxşı hal hesab olunurdu ki, oğlan uşaqları yaşa dolanda iş və yaxud macəra dalınca xarici ölkələrə gedir, məlum məsələdir ki, avtomobil qəzalarında daha çox oğlanlar dünyasını dəyişir və sairə. Buna görə də 110 statistikası normal hesab olunurdu. Lakin indi vəziyyət dəyişib. Və bu vəziyyət barəsində rəsmilər ciddi tədbir görməlidir.

Əvvəla, ölkədə ciddi maarifləndirmə işi aparılmalıdır. Yəni cəmiyyət anlamalıdır ki, qızlara qarşı qəddar münasibət olanda, qız uşaqları hələ ana bətnində ikən öldürüləndə bunun fəsadları böyük ola bilər. Ana və yaxud ata öz uşağının qətlinə özü fərman verir. Valideyn 3-4 dəfə bu cür qərar verəndə onda artıq psixoloji problemlər yaranır və istər-istəməz cəmiyyətdəki hadisələrə qarşı ondan bir aqressiya, başqalarına soyuqqanlılıq nümayiş etdirir. Humanistlik baxımından da bu düzgün deyil.

Beləliklə, cəmiyyətə aşılanmalıdır ki, qız uşaqlarına qarşı bu cür mövqe doğru deyil. Qız övladı gələcəkdə hətta oğlan övladından daha xeyirli, uğurlu insan ola bilər".

**❑ Xalidə GƏRAY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

N 117 (7287) 31 may 2019




# Qüds Günü - İzzət günüdür

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismillâhir-Rahmənir-Rahim! Mübarək Ramazan ayının artıq keçmiş günlərinə, xüsusən də Qədr gecəsi ilə bağlı əhyalara nəzər salsaq, görərik ki, müsəlmanlarda, mömin və mömınələrdə bir gözəl ayılma, öz durumlarını dərk etmə, şəxsi əxlaqi vəziyyətləri üzərində işləmə, üzərlərinə düşən ictimai məsuliyyətləri dərk etmə və daha çox ictimailəşmə kimi gözəl hallar gözə çarpır.**

Artıq mübarək Ramazan sonuncu cümə günü - Qüds günüdür. Bu, çox mühüm və cox vacib bir gündür. Dünyanın hər yerində, harada olmaqlarından asılı olmayaraq bütün müsəlmanlar - "La iləhə illəllah" əhli, Rəsulullah (s) aşiqi, qiblə tanıyan, əhya saxlayan insanlar bu gündə Qüds Gününü keçirir. İstər Fransada, istər Ərəbistanda, istər Türkiyədə, istər İtaliyada - harada müsəlman var, ona çətin də olsa, asan da olsa, onu təriflələr də, acılasalar da - bu gün Qüds Gününü keçirir.

## İzzət nədir?

Bəs Qüds Günü nədir? Bu haqda məlumatımız vardır. Keçən illərdə bu barədə danışılıb. Söhbətimizin ictimai tərəfinə keçməzdən öncə, demək istəyirik ki, Qüds Günü - müsəlmanların izzəti günüdür. Qüds Günü - bir gündür ki, bu gündə müsəlmanlar bir toplum olaraq, cəm şəklində öz sözlərini dünyaya çatdırırlar. Qüds Günü - müsəlmanların izzət günüdür. Ona görə də izzətlə bağlı mövzuya aydınlıq gətirək.

**İmam Sadiqdən (ə) nəql edirlər:** "İzzət odur ki, hər vaxt ki, haqla üzbəüz gəlsən, gərək haqqın müqabilində təvazö edəsən".

Bu, çox böyük, fövqəladə dərəcədə fundamental dəyərdir. İzzət o deyil ki, adamın pulu çox ola, malı çox ola, adamlar içində süni təriflərlə yaşaya. Mübarək İslam məntiqində haqq müqabilində təvazö edən zaman insanın izzəti var. Bu insan haqq və ədalət tərəfdarıdır, haqq və həqiqətə səcdə edir.

Ola bilər insana haqqın heç bir xeyri olmasın və hətta haqqın əksi ona zahiri bir xeyir də versin. Amma izzət odur ki, insan ona xeyir versə də, zərər versə də - zahiri haqqın qarşısında təvazö edə və həqiqi haqqın qarşısında isə baş əysin.

**Həzrət Əli (ə) buyurur:** "Hər kim izzəti Allahdan qeyrisində axtara, o "izzət" onu məhv edər". Məsələn, bir adam deyə ki, düzdür, Allah var, Peyğəmbər (s) var - bunlar hamısı öz yerində və bir kənarda qalsın, amma mən istəyirəm insanların əli ilə bir izzət tapım. Yəni bir var adam izzətin mənbəyini Allahda görür, bir də var ki, bu adamda ikiləşmə gedir.

Adi həyatımızda adət üzrə olduğu kimi - həm Allahın ətəyindən istəyirik tutaq, həm də əl atıb insanların ətəyindən möhkəm yapışaq. İstər ailə məsələsində olsun, istər ictimai işlərdə olsun - fərqi yoxdur, çox işlərimizdə biz təqribən beləyik.

Bu, müasir dövrün xəstəliyidir - insan ikiləşib: istəyir həm Allahpərəst olsun, həm də qeyri-Allahpərəst. Vasitələr insanı Allaha tərəf apardığı, Allaha xatir olduğu və Allah dediyinə görə olduğu halda yaxşıdır. Amma, Allaha xatirliklə paralel bir başqa qüvvə də insanda olsa və bir gün bu insan əlini Allahdan üzüb, izzəti həmin o qüvvədə axtarsa - bu adam həlak olacaq.

Əmirəlmömininin İmam Əlidən (ə) nəql edilən digər bir hədisdə "Hər vaxt izzət axtarışında olun" - dediyini görürük. Yəni İmam (ə) deyir ki, Allaha itaətdən, ibadətdən kənar izzət axtarma mexanizmləri hamısı boşdur, müvəqqətidir və insanı yarı yolda qoyar.

## İnsan olmaq üçün nə etməli?

**Loğmandan belə nəql edirlər:** "Əgər istəyirsən ki, dünya izzətini ələ gətirəsən, onda gərək insanların əllərində olan şeylərdən gözünü çəkəsən". Yəni insan olmaq üçün nəfsini qorumalısan, başqalarında olan şeylərdən gözünü çəkməlisən.

Bu gün ən mühüm və ciddi məsələlərdən biri - durumumuz, vəziyyətimizdir. Biz niyə bu günə düşmüşük? Çünki fərdlər izzəti-nəfslərini itirirlər. İqtisadi durum bir tərəfdən, ictimai durum o biri tərəfdən - izzəti-nəfsli şəxslərin yetişməsi üçün şərait yoxdur. Xüsusilə də iqtisadi durum insanları o kökə salıb ki, ümumiyyətlə bu müstəvidə fikirləşmək üçün imkan və şərait itib. Amma, əgər bu cür davam etsə, hər birimiz üzərinə düşən izzətli insan olma, izzəti-nəfsə malik olma funksiyasını yerinə yetirməsək, bu toplumun axırı hara gedər - bəllidir.

Bəli, çox acınacaqlı haldır ki, bu gün biz nə bir toplum kimi, nə də, nadir halları çıxmaq şərtilə, bir fərd kimi izzəti-nəfsə malik deyilik. Niyə? Çünki həm izzəti-nəfsli insanlar azdır, həm də bir ab-hava yaranıb ki, izzəti-nəfsli olmaq dəyər sayılmır. Əksinə, tam başqa dəyərlər mövcuddur. İndi ikiüzlü olmaq, ona-buna yaltaqlıq etmək dəyər sayılır. İzzəti-nəfsli olmaq isə elə sayılır ki, guya belə insan çox uzağa gedə bilməz. Bax, şüuruna belə psixologiya hakim olmuş toplumu ağır fəlakətlər gözləyir. Necə ki, Fələstin xalqı vaxtilə fəlakətə uğradı.

Bəli, Fələstin xalqı birdən-birə öz torpaqlarını itirmədi. Belə olmadı ki, fələstinlilərə, o əziz müsəlmanlara dedilər: "Sən bu bir neçə kvadrat kilometrdə qal, yaşa". Bir kvadrat kilometrdə Almaniyada təqribən 227 nəfər, Fransada 106 nəfər, Türkiyədə 77 nəfər yaşayır. Fələstində isə 2617 nəfər yaşayır. Hətta dustaqxanalar üçün xüsusi beynəlxalq konvensiyalar var ki, dustaq hansısa minimum standartlardan kiçik olan yerdə qala bilməz. Həbsxanalarda monitorinq aparan insan haqları müdafiəçiləri ora girən kimi birinci növbədə bunu ölçürlər, sayırlar, baxırlar. Əgər azdırsa, demək, məhbusun hüququ pozulub.

Amma Fələstində necədir? Elə bil ki, adamı öz evindən qovalar, sonra isə həyətin bir küncündə balaca bir tövlə düzəldələr, evdə yaşayanların da hamısını bu tövləyə salalar və deyələr ki, siz indi burada yaşamalısınız. Beləliklə, 1948-ci ildə fələstinliləri sürgün edirlər Qəzzaya və İordan çayının Qərb sahilinə və o vaxtdan da bu problemlər başlayır.

Fələstinlilərin o hala düşməkləri bəlkə də vaxtilə etdikləri səhlənkarlıqlarının nəticəsidir. Bəlkə də obyektiv-subyektiv başqa səbəblər də var.

## Qüds - yəni Qarabağ! Qarabağ - yəni Qüds!

Bunları sadalamaqda məqsəd budur ki, biz bu durumla, bu vəziyyətlə hara getdiyimizi bilək. Bizim Qarabağ dərdimiz vardır. Bu yaramız yavaş-yavaş köhnəlir, öyrəşilir. Bu gün bizi birtəhər öyrəşdirmək istəyirlər ona ki, torpaqlarınız gedib, bir hissəsini qaytararıq və yaxud nəsə edərik. Elə fələstinlilər də təqribən bu cür idilər. Onlar da heç fikirləşmirdilər ki, yavaş-yavaş torpaqları gedəcək. Birdən ayıldılar ki, torpaq yoxdur. İndi isə elə bir vəziyyət yaradılıb ki, hamı fələstinlilərin günahkar olduğunu zənn edir. İndi səhərdən axşama kimi bütün mətbuatda, televiziyada belə təqdim olunur ki, guya bunlar kiminsə gününü qara ediblər.

Qəribədir, oturmusan evində, gəlib səni güclə qovurlar. Sən də deyirsən ki, axı bu, mənim evimdir, icazə verin evimdə normal yaşayım. Onda sənə deyirlər ki, "Sus! Səsini çıxarma! Yoxsa gözünü çıxararıq". Sən də nəfəs almaq üçün, ölməmək üçün, ibadət etmək üçün hüququnu qorumaq istəyəndə, deyirlər ki, "sənə bu da çoxdur". İstədikləri vaxt tutub aparıb işgəncə verirlər, istədikləri cinayətləri sənə qarşı edirlər.

Qüds günü təkcə Fələstinlə bağlı bir gün deyil. Qüds günü - müasir dünyada müsəlmanlara üz tutularaq çalınan bir təbildir! Bu təbil deyir: "Ey, müsəlman! Sən bu məğlubiyyətlərlə hara gedirsən?! Bəs bunun sonu nə olacaq? Axı bu gün bu zülm Fələstində varsa, sabah hər yerdə ola bilər..."

Necə ki, gözümüzün qabağında artıq baş verməkdədir - Qarabağ, Əfqanıstan, İraq, Suriya, Liviya, Yəmən... Qarabağımızda gör nələr baş verir!?

İstəyirik biləк Qüds nədir - gərək erməni əsirliyində əziyyət çəkən əsirlərimizi, onların nalələrini, itirilmiş torpaqlarımızı yada salaq.

Əgər anlamaq istəyiriksə ki, necə oldu Qüds meydana gəldi - gərək gözümüzün qabağında satılan torpaqlarımızı, bu torpaqlarla edilən alverləri xatırlayaq. Elə bütün dünya səviyyəsində müsəlman torpaqları bu durumdadır. Ona görə də, bizim dəqiq bir şüarımız var: Qüds - yəni Qarabağ! Qarabağ - yəni Qüds!

Biabırçılıq həm də bundadır ki, başqa vaxt Birləşmiş Millətlər Təşkilatı bir qərar verən kimi tanklar, toplar işə düşür ki, filan sərəncamı yerinə yetiririk. Bəs iş Fələstinə və Qarabağa gələndə, nə oldu? Niyə sərəncamların yerinə yetirilməsi bunlara aid olmur?

Çünki aciz durumdayıq. Hələ anlamamışıq ki, bu müasir dünyada müasir müstəvilərdən çıxış edilməlidir. Bəlaların kökü çox sadə məsələlərdən başlayır. Əvvəl toplumun, millətin əqidəsi, milli ideologiyası, onun dini unutdurulur. Bundan sonra toplumun mədəniyyəti əldən gedir. Daha sonra torpaqları əlindən alınır. Bütün bunlardan sonra isə hər bir şeyi gedir.

## Səhvlər təkrar olunur

Biz fələstinlilərin səhvlərini bu gün də davam etdiririk. Fələstinlilər hansı səhvləri buraxıblar, indi biz bunların hamısını təkrar edirik. Hazırda Fələstində olduğu kimi, düşmənlə məğlubiyyət müstəvisində danışmağın mənası yoxdur. Düşmənlə torpaqların bütöv hamısının yox, bir hissəsinin qaytarmasının müzakirəsini etmək - məğlubiyyət deməkdir. Çünki ondan sonra deyiləcək ki, gəlin bu hissəsini yox, başqa bir hissəsini verək. Bir beş il də bunun müzakirəsi gedəcək. Sonra deyəcəklər ki, məsələn, gəlin bu balaca hissənin yox, digər bir hissənin yarısını verək. Buna da bir beş il müzakirə lazım olacaq...

Misal üçün, 13 faizini nə edək. 8 faizini nə edək... Bax, Fələstində həmin o məsələdir. O boyda yer işğal olunub, indi 8 faizin və ya 13 faizin söhbəti aparılır.

Bəs bu, nə zaman baş verir? Əvvəlcə camaata adət etdirilir ki, məsələn, işğal edilmiş yerin 13 faizi azad edilsə, çox böyük nailiyyət əldə etmiş olacağıq.

Fikir versək, görərik ki, həmin o səhvlər indi Qarabağ məsələsində də buraxılır. Onda çıxış yolu nədir? Çıxış yolu birdir və sadədir. Biz əgər nəzər salsaq bütün dünya xalqlarının tarixinə, görərik ki, ikinci yol heç vaxt olmayıb. Millətin özünün içindən passionarlıq elementi generatorlarının sayı - hərəkətverici insanların sayı artmayana qədər, o millətdən millət olmayıb. Nə qonşu gəlib sənin yerinə torpaq azad edəsidir, nə böyük qardaşın, nə kiçik qardaşın, nə də digər qardaşın... Millət özü özünə yiyə durmalıdır.

Bir fikir verin, əsrimizin əvvəlindən bu günə qədər dahilərimiz məhv olandan, şəhid olandan sonra bizi sanki bir neçə yerdən iflic vəziyyətinə saldılar. Əvvəla, məscidlərimizi - bizim mənəviyyat passionarlığı yetişdirən yerlərimizi, mənəviyyat fundamentimizi elə kökə saldılar ki, məscid adı gələndə, din adı gələndə müsəlman utanır. Amma dünyada elə deyil. Polşaya, Pribaltikaya, Finlandiyaya, ümumiyyətlə insanların öz hüquqları uğrunda mübarizə apardıqları hər bir yerə nəzər salsaq, görərik ki, onların həmişə mənəviyyatlarının dayağına - dinlərinə bağlılığı olub. Din adından danışan hoqqabazları həmişə rüsvay ediblər.

Polşada katolik kilsə, hətta kommunist rejimin ən ağrılı dumrunda belə, bir an da olsun xalqın mənəvi passionarlıq rolundan kənarda durmayıb. Düzdür, itkilər veriblər, düzdür, qanları tökülüb, düzdür, bir çox mənəviyyatlı insanları dünyadan gedib - amma, bu gün başıuca bir xalq kimi yaşaya bilirlər. Pribaltikaya da nəzər salsaq, belədir.

Tarixə baxsaq, görərik ki, nəinki Sovet dövründə, hətta daha əvvəl - çar dövründən xalqımızın mənəvi passionarlıq mənbəyi olan məscidlərimizi nə günə salıblar. İslam dinini nəzarətə götürmək üçün hələ çar dövründə yaradılmış qurumlar olub.

Sovet, çar dövrünün bütün strukturlarından imtina etdi, amma bu yanaşmadan əl çəkmədi. Bəs nə olur nəticədə? Nəticədə məscid Allah evi olmaq əvəzinə, çevrilib olur başqa şeylər. Və bir millət ki, onun məscidləri azad deyil, bir millət ki, onun azadə möminləri yoxdur, bir millət ki, onun hürr insanları məscidlərə yığılmır - həmin o millətin axırı daha ağır vəziyyətə düşəcək.

## Ayılma günü

Bizə vurulan ikinci zərbə ziyalılardan gəlib. Hansı millətin ki, ziyalı adlanan təbəqəsi qorxaqdır, yaltaqdır, şəxsiyyətsizdir - o millətin vəziyyəti ağırdır. Bax, Fələstində də belə şeylər olub - axırı da hazırkı vəziyyətlə nəticələnib. Bu gün də biz o vəziyyətdəyik. Diqqətlə nəzər salsaq, görərik ki, Sovet dövründə ziyalı təbəqəsi məhv ediləndən sonra, bu günə kimi bunun bəlasını çəkirik.

Beləliklə, Qüds günü - ayılma günüdür. Qüds günü - müsəlmanların özlərinə qayıtma günüdür. Qüds günü - öz mənliyinə, öz mənəviyyatına, öz milli ideologiyalarına, öz dininə, öz şəxsiyyətinə, öz vücudi durumuna qayıtma günüdür.

Ona görə də bu gün mücərrəd nələrdənsə danışmaqdansa, istər Fələstində, istər Qarabağda, istər daha geniş olaraq ümumən müsəlmanların problemlərinin həlli müstəvisində söhbət açmaq gərəklidir. Müsəlmanlar ayılmalıdırlar. Məscidlər azad olmalıdır. Həqiqi, xalqına bağlı olan ziyalılar yetişməlidir. Ona görə də, bu gün üzərimizdə çox ciddi vəzifə vardır. Xüsusən də elmlə məşğul olmaqla bağlı.

Bu gün biz bir dövrdəyik ki, harada təhsil almasından asılı olmayaraq, hər bir insanımız, əgər peşəkar kimi yetişməsində səhlənkarlıq edirsə, bu, həm fərd olaraq, həm toplum olaraq acı nəticələrə gətirib çıxaracaq. Əgər vəzifələrimizə əməl etməsək, onda bizim də gələcəyimiz Fələstin kimi olacaq.

**Amma bir məsələ də deyilməlidir. Bu gün Fələstin xalqı müəyyən dərəcədə çıxış yolları axtarır və tapır. Bu gün artıq Fələstin dünyaya səsini ucaldır və deyir:** "Biz artıq heç nə istəmirik. Biz azad olmaq istəyirik. Biz istəyirik BMT-nin qəbul edilən qətnamələri tətbiq olunsun". İnşəallah, tez ya gec, onlar bütün dünya müsəlmanlarının, bütün azadə insanların köməkliyi ilə, istədiklərinə çatacaqlar.

Qarabağ da, Fələstin və bütün başqa müsəlman torpaqları kimi, bütün müsəlmanlara aid olan torpaqlardır. Və bütün bu torpaqların geri qaytarılması uğrunda şüurlu, məntiqli mübarizə aparmaq bütün müsəlmanlara vacibdir. Bu baxımdan, Qüds günü - Qarabağ günüdür, oyanış günüdür, özümüzə qayıdış günüdür, cılızlıqdan, kiçiklikdən, bölünməkdən, şəxsiyyətsizlikdən, yaltaqlıqdan xilas olma günüdür, insan olma günüdür, kamil insan yetişmə günüdür.

**Bu günün mübarək Ramazan ayının sonuncu cümə gününə salınması da təsadüfi deyildir. Yəni ey Allah qonağı, bu qonaqlığı nəinki bir tək mənəvi oyanışla, həm də ictimai-siyasi oyanışla tərk etməlisən!**

**Allahım, bütün dünya müsəlmanlarını həm bu dünyada və həm də axirətdə həqiqi izzət sahibləri olan Peyğəmbər (s) və onun pak Əhli-Beyti (ə) ilə məşhur et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 117 (7287) 31 may 2019



## "İlin anası" ərini öldürdü

**İngiltərənin Bertli şəhərində "İlin anası" mükafatının laureatı Helen Karin Atay ərinin qətlində ittiham olunur. Bu barədə yazan "Daily Mail" nəşrinə görə, insident spirtli içkiyə görə baş verib.**

18 oktyabra keçən gecə 42 yaşlı Helena evdən çıxıb, özünə spirtli içki almağa gedirdi. Onun sözlərinə görə, bu zaman əri Atakan Atay hirslənib və ona yumruq zərbələri endirməyə başlayıb. Qadın məhkəmədə etiraf edib ki, ərini mətbəx bıçağı ilə ürəyindən yaralayıb və məqsədi özünü qorumaq olub. 45 yaşlı kişi telefona çatmaq və təcili tibbi yardım çağırmağa nail olub. Yaralama ölümcül olub.

Polislər hadisə yerinə gəlib və britaniyalı qadını həbs ediblər. Affekt vəziyyətində olan qadın aşağıdakıları deyirdi: "Biz, sadəcə, dalaşırdıq, amma hər şey nəzarətdən çıxdı". Məhkəmə dinləmələri zamanı baş vermiş olayın videoyazıları yayımlandı. Bu isə Helenanın gerçəkdən də özünümüdafiə məqsədilə bıçağa əl atdığını sübut edirdi.

Yerli qəzetin yazdığına görə, Helena daha öncə "İlin anası" statusuna layiq görülmüşdü. Britaniyalı qadın qızının müalicəsi üçün 500 min funt sterlinq yığmışdı. Qızının beynində şiş olduğu üçün əməliyyat keçirilsə də, onu xilas etmək mümkün olmamışdı. Qızının ölümündən sonra qadın alkoqola meyl etmişdi. İşlə bağlı növbəti dinləmə bu gün, mayın 31-də baş tutacaq.

## Dəcəllik edən uşağın sirri tapıldı



**Türkiyəli uşaq psixoloqları müəyyənləşdirib ki, 3-11 yaşlı uşaqların valideynlərinin sözünə qulaq asmaması, onları incitməsi daha çox onların diqqət çəkmək cəhdi ilə bağlıdır. Xüsusən anaların iş qadını olduğu bu zamanda uşaqlar onlardan "oğurlanan" vaxta görə mübarizə aparırlar. Psixoloqlar müəyyən edib ki, uşaqlar bu cür asi davranışları ilə analarının onlar barədə daha çox düşünməsinə nail olmaq istəyir. Araşdırmaya rəhbərlik edən psixoloq Nadir Özdilek açıqlayıb ki, analar məhz uşaqların əcaib hərəkətlərindən sonra sanki silkələnir: "Analar məhz bu zaman uşaqlarına az vaxt ayırdıqlarının fərqinə varır və onların tərbiyəsinə, davranışına xüsusi diqqət ayırır. Amma uşaq bunu daim təkrarlayırsa, onu psixoloq yanına aparmaq lazımdır".**

## Təmizlikçi kişi 7 milyon dollar uddu, amma işdən çıxmır




**Kanadada təmizlikçi bir kişi bir neçə milyon Kanada dolları məbləğində cek-pot udsa da, işini atmaqdan imtina edib. Bu barədə CNN informasiya portalı məlumat verib. Kanadaya Filippindən gələn Vito Halasan etiraf edib ki, lotereya biletini 58 yaşını qeyd edəndən bir neçə gün sonra alıb. Lotereyanı udduğunu anlayanda isə gözlərinə inana bilməyib.**

Kişi qızına zəng edib və ondan yanına gəlməsini xahiş edib. "O, məni masa arxasında oturtdu. Daha sonra isə olduqca asta səslə dedi ki, 7 milyon Kanada dolları qazanıb" - bunu da qızı deyib. Öncə o, atasının sözlərini zarafat kimi qəbul edib, daha sonra isə rəqəmləri lotereyada yoxlayıb və uduşlu olduğunu görüb. Udduğu pullarla Halasan uşaqlarının və nəvələrinin gələcəyini təmin edəcək. Kişi özünə böyük bir ev almağı planlaşdırır. Bu arada miqrant işdən çıxmağı planlaşdırmır. Əksinə, növbələri qısaltmağı düşünür.

Apreldə İrlandiyadakı cütlüyün lotereyadan 5 milyon funt sterlinq qazandığı və onların heç birinin işdən çıxmağı düşünmədikləri xəbəri yayılmışdı. Onlar bildirmişdilər ki, "bu qələbəyə görə ağıllarını itirmək fikrində deyillər".

## Qoroskop (31 may)




**QOÇ** - Fikir və düşüncələrinizdə qətiyyətli olsanız, hər hansı problemlə rastlaşmayacaqsınız. İqlimin təhərindən asılı olmayaraq günün ikinci yarısında qonaq getmək əlverişlidir.

**BUĞA** - Mənfi enerjili Ayın bürcünüzdə olması risklərinizi artıracaq. Çıxardığınız qərarlar yaxın gələcək üçün taleyinizi həll edə bilər. Amma Göy qübbəsi haqqınızda nikbindir.

**ƏKİZLƏR** - Maliyyə problemlərinə görə darıxmayın. Ulduzlar yaxın vaxtlarda sizi varlandıracaq. Bu günsə evlə bağlı məsələlərin həllinə çalışmalısınız. Səhhətinizə ciddi yanaşın.

**XƏRÇƏNG** - Ailə üzvlərinizlə müəyyən anlaşılmazlıqlarınız gözlənilir. Çalışın ki, yaranmış konfliktləri sülhə doğru istiqamətləndirəsiniz. Tanrıya zidd addımlardan əl çəkin.

**ŞİR** - Ümumi məziyyətlərinə görə xoş gündür. Bir şərtlə ki, işgüzar sövdələşmə və müzakirələrinizi bir kənara qoyasınız. Qarşılıqlı münasibətlərdə ürəyinizcə olan hadisələr mümkündür.

**QIZ** - Şəxsi münasibətlərdə meydana çıxan mübahisəli situasiyalar qismən də olsa, qaydasına düşəcək. Sadəcə, təmkin göstərmək lazımdır. Bu gün ocaq və pirlərə getmək düşərlidir.

**TƏRƏZİ** - İşgüzar sövdələşmələrdə iştirak etmək və gələcək planları götür-qoy etmək üçün səmərəli gündür. Axşamı bütünlüklə sevdiyiniz insanlara həsr edin. Onlarla birgə olmağa çalışın.

**ƏQRƏB** - Kənardan kömək göstərən olmasa, hansısa cəhdinizin baştutma ehtimalı reallaşmayacaq. Ümumiyyətlə, bu tarixdə yalnız başqalarının məsləhətilə hərəkət etməlisiniz. Axşam qonaq getməyə dəyər.

**OXATAN** - Bu təqvimdə aktivliyinizi birə-beş qat artırmalısınız. Ona görə də şəxsi məqsədləriniz naminə müəyyən ünvanlara baş çəkməyiniz vacibdir. Əmin olun ki, sizə kömək edənlər tapılacaq.

**OĞLAQ** - Qarşınızda duran öhdəliklərin çoxluğu sizi üzməməlidir. Əgər bu vəzifəni icra etməkdə tərəddüdünüz varsa, dost-tanışlarınızın məsləhətlərindən bəhrələnin. Qətiyyətli olun.

**SUTÖKƏN** - Astroloji göstəricilər ovqatınızın havadan asılı olduğunu bəyan edir. Deməli, iqlim ürəkaçan olsa, nəzərdə tutduğunuz işlər də qaydasında gedəcək. Özünüzü gərginliyə salmayın.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Manelərinizi çox olacaq. İkitərəfli danışıqlarda təşəbbüskarlığı əldə saxlayın. Əsas diqqətinizi maliyyə problemlərinə və səhhətinizə yönəldin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Pulunu yola səpələdi, polis yolu bağladı




**Almaniyanın İnqolştadt şəhərində polis şosseni müvəqqəti olaraq bağlayıb. Buna səbəb yola səpələnən 9000 avro məbləğindəki pul olub. Lenta.ru saytının xəbərinə görə, bir biznesmen motosikletlə hərəkət etdiyi zaman qəfil içində pul olan çantası yerə düşüb və pullar da yola səpələnib. Kiçik kupyuralarla olan 9 000 avronu yığmağa çalışan kişini görənlər isə dərhal polisə xəbər veriblər. Hadisə yerinə gələn polislər də biznesmenə yardım etmək üçün magistralı bağlayıblar. Amma son nəticədə onlar 9000 avronun 1500 avrosunu tapa bilməyiblər. Səbəb isə həmin pulların külək tərəfindən sovrulması olub. Ötən ilin dekabrında Çində bir nəfər 25 min yuanını yola səpələdiyi üçün ətrafdakılar onu yığmağa kömək etmişdilər.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.070